# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

18 MART 2020-ci il

№ 48 (4179)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# İCRA BAŞÇILARININ İŞİ SƏMƏRƏLİLİK KATEQORİYALARINA BÖLÜNƏCƏK - PREZİDENTİN TAPŞIRIQLARININ İCRA VƏZİYYƏTİ ELEKTRON NƏZARƏT ALTINA ALINIR

■ səh. 2 ■

Virus təhlükəsinin yayılma dərəcəsinə görə Azərbaycanın və böyük dünya ölkələrinin müqayisəli yeri...

■ səh. 4 ■

Yarıtmaz icra başçıları xalqı hakimiyyətdən narazı salan əsas ünsürlər kimi...

■ səh. 8 ■

Qarabağ təcavüzkarlığı üzündən regional təcridə düşmüş Ermənistan üçün yeni problem - ordu koronavirusa təslim olur

■ səh. 9 ■

Bir çox ölkələrin milli valyutaları çökdürülür, Azərbaycan manatı risqlərdən sığortalıdır

■ səh. 11 ■

Moskva və İrəvanın fikir ayrılığı "Metsamor" təhdidini artırır

■ səh. 10 ■

Koronavirus təhlükəsinə görə bütün məsuliyyəti dövlətdə görmək düzgündürmü - hər kəsin məsuliyyətinin gücü...

■ səh. 5 ■

Koronavirusla mübarizədə rejim qaydalarını pozanların iki min manatadək cərimələnməsi...

■ səh. 6 ■

Məscid və mərasim evlərində kütləvi ibadət tədbirləri nə dərəcədə risq mənbəyi sayılır...

■ səh. 14 ■




■ səh. 3 ■

✔ Azərbaycanda koronavirus yenilikləri - 46 vətəndaşımız salamat çıxdı, Bakı, Sumqayıt və Abşerona giriş məhdudlaşdırıldı

✔ İspaniyada 149, İranda 135 nəfər öldü, ABŞ Müdafiə naziri Esper və müavini karantinə alındı





Bu anons da Prezidentin Sahil Babayevi qəbul etməsi zamanı verildi - Kommunal xərc limitləri artırılacaq

■ səh. 2 ■

Ermənistandan Rusiyaya daha bir ağır ittiham - «1921-1923-cü illərdə türklərlə birgə 300 min erməni məhv etmisiniz»...

■ səh. 7 ■

Əmək müqavilələrinin uçotuna görə nazirə qarşı kampaniyanın sifarişçisi...

■ səh. 12 ■

■ səh. 5 ■

Azərbaycanda koronavirus tədbirlərinin daha da sərtləşdirilməsi, hətta fövqəladə vəziyyətə qədər - ekspertlər necə baxır...



■ səh. 6 ■

Yeni dövrün yeni məcburi idarəçilik üsulu - telefon-internet müşavirələri...



■ səh. 13 ■

Koronavirusa qarşı vaksin hazırlığına Azərbaycan alimləri də qoşula bilər...



■ səh. 12 ■

Özünüməşğulluq proqramı çərçivəsində dövlətin payladığı mal-heyvanlar hansı hallarda dələduzluğun qurbanı olur...



■ səh. 15 ■

Azərbaycanda muzdla çalışanların sayı çoxalır - prosesin iqtisadi əsasları...



**Prezident İlham Əliyev "Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Prezident Administrasiyasında Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün yeni informasiya sistemi yaradılacaq.**

*"Dövlət qurumlarının faktiki olaraq qarşılıqlı nəzarət mexanizminin gücləndirilməsinə zəmin yaradacaq"*

# İcra başçılarının işi səmərəlilik kateqoriyalarına bölünəcək - Prezidentin tapşırıqlarının icra vəziyyəti elektron nəzarət altına alınır

***Elçin Mirzəbəyli:** "Bu, icra strukturlarının elektron hökumətə inteqrasiya prosesinə əsas verəcək"*



Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyi mütərəqqi dünya təcrübəsinə uyğun əsas səmərəlilik göstəriciləri üzrə qiymətləndiriləcək.

Prezident Administrasiyası beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, aşağıdakılar barədə təklifləri altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir: Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin yaradılması və tətbiqi; Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün səmərəli informasiya sisteminin iş qaydası.

Sərəncamda Nazirlər Kabinetinə dövlət orqanları və qurumları tərəfindən icra intizamına əməl olunması vəziyyətini təhlil etmək və icra intizamının pozulması halları, onlara yol verən dövlət orqanları və qurumları barədə Prezidentə ildə iki dəfə məlumat vermək tapşırılıb.

Sərəncamda deyilir ki, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində respublikada çoxşaxəli işlər görülməkdədir. Müasir dövrün çağırışlarından biri kimi, dövlət orqanları və qurumlarının fəaliyyətinin səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi sisteminin mərhələlərlə işlənməsi və tətbiqi dövlətimizin diqqət mərkəzindədir.

Bu baxımdan, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin müasir standartlara uyğun əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi üçün zəruri sistem hazırlanıb və qəbul edilib.

Aparılan sosial-iqtisadi islahatlar, regionların inkişafına dövlətin göstərdiyi qayğı və diqqət nəzərə alınaraq, regionlarda sosial-iqtisadi inkişafın tamamilə yeni mərhələyə qədəm qoyması məqsədilə digər əməli tədbirlərlə yanaşı, səmərəliliyin qiymətləndirilməsi sisteminin yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə də şamil olunması imkanları təhlil edilməli və ən qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tətbiqinə başlanmalıdır.

Eyni zamanda, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına, bu sahədə daha əhatəli və çevik mexanizmlər yaradılmasına ehtiyac var.

Bütövlükdə, sözügedən sərəncamın əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, elektron nəzarətlə bağlı Prezidentin sərəncamı mühüm əhəmiyyət kəsb edir: "Bu nəzarətin şəffaflaşdırılması istiqamətində atılan çox ciddi addımdır. Bu, ölkədə dövlət idarəçiliyi sistemində aparılan islahatların tərkib hissəsidir. Şübhəsiz ki, indiki şəraitdə bu faktın özü bir neçə istiqamətdə mühüm əhəmiyyətə malikdir. Bu, icra strukturlarının elektron hökumətə inteqrasiya prosesinə əsas verəcək. Eyni zamanda, bu prosesi aktivləşdirəcək. Dövlət qurumlarının faktiki olaraq qarşılıqlı nəzarət mexanizminin gücləndirilməsinə zəmin yaradacaq. Hesab edirəm ki, Prezidentin bu sərəncamı önəmli bir qərardır. Fikrimcə, bu addım xərclərin optimallaşdırılmasına da öz töhfəsini verəcək".

***Vidadi ORDAHALLI***

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyev tərəfindən qəbul edilən zaman bəzi kommunal xərclərlə bağlı tətbiq edilən limitin artırılması istiqamətində hökumətin iş apardığını bildirib.**

# Bu anons da Prezidentin Sahil Babayevi qəbul etməsi zamanı verildi - Kommunal xərc limitləri artırılacaq

***İlqar Hüseynli:** "Ölkə iqtisadiyyatının kifayət qədər potensialı var ki, bu limitlər artırılsın"*



Nazir deyib ki, bu il üçün dövlət büdcəsindən ayrılmış vəsait çərçivəsində 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılır: "Bu da ünvanlı sosial yardım proqramının əlavə olaraq daha 20 faiz genişləndirilməsi deməkdir. Bununla bərabər, kriteriyaların yumşaldılması və bu istiqamətdə əhaliyə dəstək verilməsi barədə Sizin tapşırığınız olmuşdu. Artıq ötən il bir sıra istiqamətlərdə addımlar atıldı, torpaq pay mülkiyyətilə bağlı yüngülləşmələr tətbiq olundu, sırf o islahatın nəticəsində əlavə 7 min ailə ünvanlı sosial yardım proqramına daxil ola bildi.

Bu il üçün də kommunal xərclərin limitinin artırılmasına dair təkliflər hazırlanıb və hökumət tərəfindən müzakirə olunur. Yeni parlament tərəfindən qanunvericiliyə edilən dəyişikliklərlə biz 85-90 min ailənin məhz ünvanlı sosial yardım proqramı ilə əhatə olunmasını təmin edəcəyik".

Nazir bildirib ki, paralel olaraq, ehtiyac meyarının bir il ərzində ciddi şəkildə, 10 faizdən çox artırılması, 143 manatdan 160 manata çatdırılması ünvanlı sosial yardımın məbləğinin də artmasına imkan verib. "Əgər 2018-ci ildə ünvanlı sosial yardımın məbləği 160 manat idisə, ötən il 200 manata çatdı. Bu il üçün proqnozlarımıza əsasən, bu rəqəm 215-220 manat arasında olacaq. Deməli, hər ay ünvanlı sosial yardım alanlar bu qədər vəsaitlə təmin olunacaqlar".

Göründüyü kimi, nazir kommunal xərclərin limitinin artırılmasına dair təkliflər hazırlandığını və hökumət tərəfindən müzakirə olunduğunu qeyd edib. Ölkə başçısı həmin fikrə heç bir irad bildirməyibsə, deməli, bu istiqamətdə yeniliyin şahidi ola biləcəyik. Nazirin bu açıqlaması əhali arasında çox müsbət qarşılanıb. Bəllidir ki, hökumət əsasən elektrik enerjisi və təbii qaza müəyyən limit tətbiq edir. Əhalinin müxtəlif təbəqələri tərəfindən kommunal xidmətlərə olan limitlərin artırılması ilə bağlı ölkə rəhbərliyindən dəfələrlə xahişlər edilib. Görünür, hökumət bunu nəzərə almağı məqsədəuyğun sayıb. Belə bir addımın atılmasına cəmiyyətin ehtiyac meyarını necə dəyərləndirə bilərik?

Ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu addımın atılmasına əhalinin böyük ehtiyacı var: "Xatırladaq ki, 2016-cı il 22 dekabrda Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə təbii qaz və elektrik enerjisindən istifadəyə görə güzəştli limitlər artırılıb. Əhali üzrə aylıq elektrik enerjisi istehlakı 300 kilovatsaatadək olan istehlakçılar üçün dəyişdirilməyərək mövcud 7 qəpik səviyyəsində saxlanıb, aylıq istehlak həcminin 300 kilovatsaatdan çox olan hissəsi üçün isə 11 qəpik müəyyənləşdirilib. Eləcə də təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcmi 1700 kubmetrədək olan istehlakçılar üçün dəyişdirilməyərək bir kubmetr üçün mövcud 10 qəpik səviyyəsində saxlanıb, illik istehlak həcminin 1700 kubmetrdən çox olan hissəsi üçün isə 20 qəpik müəyyənləşdirilib. Bu ilin yanvar ayından isə təbii qaza olan limit 22000 kubmetrə qədər artırılıb. Hesab edirəm ki, ölkə əhalisi üçün indi ən böyük müjdə işıq və qaz limitinin tam aradan qaldırılması olardı. Çünki insanların gəlirlərinin əhəmiyyətli bir hissəsi işıq və qaz ödənişinə gedir. Limiti keçən ailələr ikiqat ödəniş etməli olurlar. Bunu etmək mümkün deyilsə, ən azından, limitin artırılması yaxşı olardı. Bir neçə dəfə bu məsələ gündəmə gəlib. Ekspertlər və bəzi deputatlar təkliflərlə çıxış ediblər ki, limit ləğv olunsun, bu məbləğ büdcə üçün o qədər böyük rəqəm deyil. Bir çox ailə güzəştli qiymətlə bağlı tətbiq olunan limiti tükədib, təbii qazı yüksək qiymətlə almağa başlayır. Bu da maddi vəziyyəti elə də yüksək olmayan insanlar üçün çətinlik yaradır. Xüsusən də bölgələrdə, mərkəzləşdirilmiş istilik sistemi olmayan Bakı kəndlərində əhali təbii qazdan imtina edərək odun yandırmağa başlayıb.

Ölkə iqtisadiyyatının kifayət qədər potensialı var ki, bu limitlər artırılsın. Sahil Babayevin Prezidentin qəbulunda kommunal xidmətlərlə bağlı limitlərin artırılması istiqamətində hökumətin iş apardığını deməsi bununla bağlı ciddi ümid yaratmış oldu. Hesab edirəm ki, bu il kommunal xidmətlərə limitlərin artırılmasının şahidi ola bilərik. Verilən anons bunu söyləməyə əsas verir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda koronavirus yenilikləri - 46 vətəndaşımız salamat çıxdı, Bakı, Sumqayıt və Abşerona giriş məhdudlaşdırıldı

**Azərbaycanda 3 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan həmin şəxslər özlərini normal hiss edir, səhhətləri stabil qiymətləndirilir. Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatnda deyilir.**

Hazırda xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altında olan bütün aktiv koronavirus xəstələrinin müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

NK yanında Operativ Qərargah koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşları Ümumdünya Səhiyyə Təşkilatı və Qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırır.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə bütün səviyyələrdə hərəkətin məhdudlaşdırılması və sosial təcridin gücləndirilməsi tədbirləri davam etdirilir.

Bu məqsədlə martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılır.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunur.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə verilir.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan avtomobillərin və sərnişindaşıma nəqliyyat vasitələrinin qeydiyyatda olduqları yaşayış məntəqələrindən kənara səfər etməkdən və sərnişin daşımaqdan çəkinməyə çağırılır.

Sumqayıt və Abşeron istisna olmaqla, ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır.

Ölkə ərazisindəki hava limanlarından Bakıya sərnişin daşınmasına fasilə verilir.

Ticarət əlaqələrinin saxlanması, ərzaq və başqa gündəlik tələbat mallarına ehtiyacı təmin etmək məqsədilə bütün nəqliyyat vasitələri ilə yükdaşımaları sərbəstdir.

Xüsusi buraxılış rejimi qaydalarını pozan şəxslər haqqında hüquqi məsuliyyət tədbirləri tətbiq olunacaq.



Bu vaxta qədər 1 saylı Kliniki Tibbi Mərkəzə (KTM) koronavirus şübhəsi ilə yerləşdirilən Azərbaycan vətəndaşlarının heç birində virus aşkar edilməyib.

Kliniki Tibbi Mərkəzdən "Trend"-ə verilən məlumata görə, hazırda 9 nəfər stasionar karantin şəraitində saxlanır:"Koronavirus xəstəliyi yayılandan bu vaxta qədər mərkəzə 46 nəfər Azərbaycan vətəndaşı gətirilib. Onlardan heç birində koronavirus aşkar edilmədiyi üçün 37-si evə buraxılıb, 9 nəfər isə karantindədir".

Qeyd edək ki, hazırda xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altında olan bütün aktiv koronavirus xəstələrinin müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Azərbaycan koronavirusla mübarizə aparmaq üçün kifayət qədər dərman və tibbi ləvazimat ehtiyatlarına malikdir.

Azərbaycanda koronavirusun yayılmasının qarşısını almaq üçün bütün mümkün qabaqlayıcı və operativ tədbirlər həyata keçirilir. Səhiyyə Nazirliyinin baş infeksionisti Cəlal İsayevin

sözlərinə görə, Azərbaycan bu baxımdan hətta bir çox ölkələri qabaqlayır.

C.İsayev koronavirusun yayılmasının qarşısını almaq üçün Azərbaycanla qonşu ölkələrin - Türkiyə, Rusiya və İranla gediş-gəlişin məhdudlaşdırılmasını da olduqca mühüm tədbir hesab edir.

C.İsayev qeyd edib ki, Azərbaycanda səmərəli qabaqlayıcı tədbirlərin görülməsi sayəsində vəziyyət nisbətən daha qənaətbəxşdir:"Lakin buna baxmayaraq, məsələyə ciddi yanaşmaq, panikaya yol verməmək, təhlükənin real olacağını da başa düşmək lazımdır. Buna görə də insanlar virusun daha çox yayılmaması üçün tələb olunan sanitar-gigiyenik qaydalara əməl etməlidirlər".

Qeyd edək ki, koronavirus infeksiyası (COVİD-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib ki, virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb.

Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Həmçinin dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna nəqliyyat vasitələrinin girişinin məhdudlaşdırılması ilə əlaqədar DİN Baş DYP (Dövlət Yol Polisi) İdarəsi açıqlama yayıb.

Açıqlamada bildirilir ki, koronavirus infeksiyasının yayılması hallarının qarşısını almaq məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş qərara əsasən, martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılacaq, yalnız Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə veriləcək: "Təhlükəsizlik tədbirləri ilə əlaqədar DİN Baş DYP İdarəsi hərəkət iştirakçılarının nəzərinə çatdırır ki, Bakı-Ələt yolunun 65-ci, Bakı-Şamaxı yolunun 26-cı və Bakı-Quba yolunun 45-ci kilometrindən paytaxt və Sumqayıt şəhəri istiqamətinə bütün növ nəqliyyat vasitələrinin girişi, habelə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunacaq.

Qeyd olunanlar nəzərə alınaraq, sürücülərdən xahiş olunur ki, yollarda, xüsusilə də keçid postları təşkil edilmiş ərazilərdə sıxlıq yaranmaması üçün xüsusi rejimə riayət edilməsi məqsədilə 18 mart tarixində günorta saatlarından sonra paytaxt istiqamətinə hərəkət etməsinlər.

Həmçinin sürücülərin diqqətinə çatdırılır ki, xüsusi buraxılış rejimi qaydalarını pozan, eləcə də polisin qanuni tələblərinə tabe olmayan şəxslər haqqında ciddi məsuliyyət tədbirləri tətbiq olunacaq".

*Baki-xeber.com*

# Virus təhlükəsinin yayılma dərəcəsinə görə Azərbaycanın və böyük dünya ölkələrinin müqayisəli yeri...

**Koronavirusun dünyada yayılmasının təhlükəli miqyas almağa başladığı ilk gündən Azərbaycanda xüsusi komissiya fəaliyyətə başladı. Risqin minimuma endirilməsi ilə bağlı tədbirlərə start verildi. Bəzi xəstəxanalarda xüsusi otaqlar yaradıldı. Hazırda vəziyyət tam nəzarətdə saxlanır.**

Rəsmi məlumatlara əsasən, Azərbaycanda koronavirusa yoluxma halı çox az sayda insanda aşkarlanıb. Amma ABŞ, Çin, İtaliya, İran və Avropanın digər inkişaf etmiş ölkələrində bu pandemiya geniş yayılıb. Digər ölkələrin təcrübəsi göstərir ki, hətta dünyanın nəhəng, inkişaf etmiş ölkələri də belə hallardan sığortalanmayıb. Azərbaycan da dünyadan təcrid deyil və beynəlxalq problem olan epidemiyanın təsirinə məruz qala bilər. Ona görə də ölkəmizdə kiçik şübhə doğuracaq hər bir məqama böyük diqqət yetirilir. Virusa yoluxma ehtimalı olan şəxslər dərhal nəzarətə götürülür.

Bu gün dünyada "koronavirus panikası" dolaşır. Bu epidemiyanın yayılmasının yaratdığı narahatlıqla əlaqədar bir çox beynəlxalq tədbir təxirə salınır, koronavirus təhlükəsi ucbatından bir çox ölkə lideri əhali ilə təmaslarını belə dondurub.

Lakin dünyanın inkişaf etmiş ölkələrinin prezidentləri əhali ilə birbaşa təmasdan imtina etdikləri bir vaxtda Prezident İlham Əliyev Azərbaycanın bölgələrinə səfər edərək, vətəndaşlarla sıx təmasdadır. Onu da vurğulayaq ki, hazırda koronovirus infeksiyasına yoluxmaq təhlükəsi olmasına baxmayaraq, Prezident İlham Əliyevin bölgələrə səfərləri dünya mediası da "Prezidentdən nümunəvi addım" kimi dəyərləndirir.

Hazırda dünya gündəmini zəbt edən koronavirus və onunla mübarizə üsulları bütün dünya tərəfindən geniş müzakirə edilir. Azərbaycana gəldikdə, deyə bilərik ki, vəziyyət tam nəzarət altındadır. Nazirlər Kabinetinin yanında xüsusi Operativ qərargah yaradılıb. Dövlət büdcəsindən bu epidemiya ilə mübarizə üçün milyonlarla vəsait ayrılır. Eyni zamanda, Azərbaycan vətəndaşlarının xarici ölkələrdən təxliyyə edilməsi üçün xüsusi tədbirlər həyata keçirilir. Onların həm quru sərhəddən, həm də hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin edilir. Eyni zamanda, orta, ali məktəblərin, uşaq bağçalarının müvəqqəti olaraq bağlanması haqqında müvafiq göstərişlər verilib. Bunun da məqsədi uşaqları, yeniyetmələri o xəstəlikdən qorumaqdır. Azərbaycanda bu xəstəliyin bu günə olan məlumata görə, yayılması ehtimalı o qədər də yüksək deyil. Buna baxmayaraq, ölkədə yaradılan Operativ qərargah hətta büdcəyə gəlirlərin daxil olduğu bir sıra yerlərin, sahələrin fəaliyyətinə məhdudiyyətlər qoyub. Dünya ölkələri ilə bağlı aparılan müqayisəli təhlillər göstərir ki, Azərbaycanda koronavirus infeksiyası ilə bağlı vəziyyət ciddi nəzarət altındadır və ölkədə lazımi tədbirlərin daha sürətlə həyata keçirilməsi üçün dövlət bütün addımları atır.



Burada bir nüansa da nəzər salmaq lazım gəlir. Bu günə olan məlumata görə, Azərbaycanda xəstəliyin yayılması ehtimalı o qədər də yüksək olmasa da, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinq aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıb, heç bir ölkə yükdaşımaların həyata keçirilməsinə məhdudiyyət qoymayıb və tranzit potensialının gücləndirilməsini qarşısına məqsəd qoymuş Azərbaycan da analoji mövqe nümayiş etdirir.

Bununla yanaşı, xəstəliyin yayılmaması üçün bütün məsələlər hər bir xırdalığa qədər düşünülür və müvafiq addımlar atılır.

Digər tərəfdən, Azərbaycan hökuməti Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır, xəstəliyi aşkar etmək üçün testlərin ölkəyə gətirilməsi ilə bağlı müvafiq işlər aparılır.

"Biz gün ərzində 5 mindən çox insanı sürətlə və yüksək dəqiqliklə test etmək imkanına malikik".

Bunu Milli Məclisin Səhiyyə və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında Nazirlər Kabineti yanında Operativ qərargahın üzvü, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı koronavirusla bağlı mübarizə sahəsində görülən işlər, mövcud durum barədə məlumat verərkən bildirib.

R.Bayramlı deyib ki, indiyə qədər xəstəlik aşkar olunmadığı üçün 711 nəfər karantindən evə buraxılıb, hazırda karantində 560 nəfər var: "Bu günə qədər 4200-ə qədər müayinə aparılıb. 25 nəfərdə koronavirus aşkarlanıb. Onlardan 7 nəfərdə inkubasiya dövrü bitib, onlar sağalaraq evə buraxılıblar".

İndisə gəlin dünya ölkələrində bu vəziyyətlə bağlı son statistikaya nəzər salaq. "COVİD-19" virusuna yoluxanların sayı dünya üzrə 182,725-ə çatıb.

Ümumdünya Səhiyyə Təşkilatının son statistikasına əsasən, dünya üzrə koronavirus xəstəliyindən ölənlərin sayı 7174 nəfərdir. 79,883 nəfər xəstəlikdən sağalıb. Epidemiya, ümumilikdə, 158 ölkədə yayılıb. İqtisadiyyatının gücünə görə dünyanın ilk 7 ölkəsi sırasına daxil olan İtaliyada bu sahədə vəziyyət daha acınacaqlıdır. Son sutka ərzində İtaliyada koronavirusdan 368 nəfər ölüb. Bu barədə İtaliya Mülki Müdafiə Departamentinin rəhbəri Ancelo Borrelli bildirib. Onun sözlərinə görə, virus qurbanlarının ümumi sayı 1809 nəfərə çatıb.

**Borrelli qeyd edib ki, son bir gündə İtaliyada daha 2853 nəfərdə virus aşkarlanıb. Hazırda ölkədə koronavirusa yoluxanların sayı 20,6 mindən çoxdur. Bütün bu müqayisələr göstərir ki, ölkəmizdə dünyanı cənginə alan epidemiya ilə bağlı dövlət səviyyəsində ciddi tədbirlər görülür və vəziyyət normaldır. Ancaq hesab edirik ki, vətəndaşlarımız da bu məsələdə məsuliyyətli davranmalı, öz şəxsi gigiyenalarına xüsusi fikir verməlidirlər.**

***Məhəmmədəli QƏRİBLİ***

**Dünyanın gündəliyində dayanan koronavirus pandemiyası bütün sahələrə sirayət etməkdədir. Elə bir vəziyyət yaranıb ki, hətta böyük, inkişaf etmiş dövlətlər belə sözügedən virusdan sığortalanmayıb. Koronavirusun yaratdığı situasiya ilə bağlı ayrı-ayrı ölkələrdə ümumi mənzərə eynidir.**

*"...insanların həyatının qorunması hər şeydən önəmlidir"*

# Azərbaycanda koronavirus tədbirlərinin daha da sərtləşdirilməsi, hətta fövqəladə vəziyyətə qədər - ekspertlər necə baxır...

Bu gün dünyanın aparıcı ölkələrinin səhiyyələri belə COVID-19-un əsirinə çevriliblər. Böyük yeddiliyə daxil olan İtaliya kimi ölkədə vəziyyət daha kritikdir. Bir sözlə, hazırda koronavirusla bağlı müzakirələr bütün spektrləri - tibb dünyasını, siyasəti, iqtisadiyyatı, medianı əhatə edir.

Azərbaycanda da sözügedən məsələ ilə bağlı bir sıra işlər görülür. Fevral ayından Azərbaycanda koronavirusla mübarizə ilə bağlı konkret tədbirlər həyata keçirilir. Azərbaycan resurslarını işə salaraq, bütün mümkün qabaqlayıcı və operativ tədbirlərini görür. Daha mürəkkəb situasiyalara hazır olmaq üçün isə Azərbaycanda daha da sərt tədbirlər tətbiq oluna bilər. İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərə görə, Azərbaycanda epidemiya əleyhinə rejimi pozanlar cərimə ediləcəklər. Belə ki, epidemiya əleyhinə sanitariya, gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manatadək məbləğdə, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə ediləcəklər. Həyata keçirilən tədbirlərin başlıca məqsədlərindən biri də hökumətin infeksiyanın miqyasının genişlənəcəyi ehtimalına daha hazırlıqlı olmasını təmin etməkdir. Nazirlər Kabineti əhalinin maarifləndirilməsi istiqamətində də çevik və operativ davranır. Operativ qərargah mövcud vəziyyət və görülən işlərlə bağlı ictimaiyyətə ətraflı məlumatlar verir. Bütün bunlarla yanaşı, zərurət yaranarsa, hətta ölkədə fövqəladə vəziyyətin elan olunmasına ekspertlər necə yanaşırlar?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, ehtiyac yaranarsa, ölkədə fövqəladə vəziyyətin elan olunmalıdır: "Hesab edirəm ki, bunda elə bir qəbahət bir şey yoxdur. Məsələ ondadır ki, koronavirusla mübarizədə bütün dünya ölkələri tədbirlər görür. O cümlədən, Azərbaycanda da bir sıra işlər həyata keçirilir. Düzdür, dünyada müəyyən qüvvələr bunu, bir növ, daha da şişirdirlər. Burada da başqa məqsədlər ola bilər. Yeni bu amili də inkar etmək olmaz. Reallıq ondan ibarətdir ki, Azərbaycan dövləti bununla bağlı yetərincə işlər görür. O cümlədən, dünya ölkələrində koronavirusla bağlı vaksin də hazırlanır. Hesab edirəm ki, ölkəyə giriş-çıxışa məhdudiyyətin qoyulması, sərhədlərin bağlanması öz müsbət nəticəsini verər. Bütün bunlara baxmayaraq, ehtiyac yaranarsa, ölkədə fövqəladə vəziyyət elan edilməlidir.

## **Məhərrəm Zülfüqarlı:** *"Ehtiyac yaranarsa, ölkədə fövqəladə vəziyyət elan edilməlidir"*




Yeni virusun yayılmasını cilovlamaq mümkün olmasa, o zaman belə addımlar atılmalıdır və cəmiyyət buna hazır olmalıdır. Çünki insanların həyatının qorunması hər şeydən önəmlidir. Ümid edirəm ki, Azərbaycanda fövqəladə vəziyyətin elan olunmasına ehtiyac qalmayacaq. Qısa müddətə bu bəladan bəşəriyyət qurtulacaq. Çünki dünyada tarix boyu belə hallar olub və bəşəriyyət bu sınaqlardan çıxıb. İndi 21-ci əsrdir. Hansı ki, elm və texnika çox inkişaf edib. Belə bir əsrdə bu prosesin uzun çəkəcəyi ehtimalı çox azdır. Çox güman ki, fövqəladə vəziyyətin elan olunmasına ehtiyac qalmayacaq. Onsuz da dövlət bütün tədbirləri görür. Ancaq istənilən vəziyyətə cəmiyyət hazır olmalıdır".

***Vidadi ORDAHALLI***

**Çində başlayıb dünyaya yayılan yeni koronavirus can almaqda davam edir. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla bağlı martın 16-na olan son statistik məlumatları və risq göstəricilərini yayımlayıb. Həmin məlumata görə, dünya üzrə yoluxma sayı, ümumilikdə, 157 ölkə/ərazi üzrə 169 610 nəfərdir.**

# Koronavirus təhlükəsinə görə bütün məsuliyyəti dövlətdə görmək düzgündürmü - hər kəsin məsuliyyətinin gücü...




## **Rəsul Cahangirli:** *"Koronavirusla mübarizədə əsas məsuliyyət cəmiyyətin üzərinə düşür"*

Son yoluxma sayı 192 nəfərdir. Onların içərisində 15-i yeni olmaqla 6518 şəxs artıq ölüb. Bu günə qədər virus infeksiyasından 77 776 şəxsin sağaldığı qeydə alınıb. Statistikaya əsasən, onlardan 1600 nəfər yeni sağalanlardır.

Koronavirusla bağlı mübarizədə məsuliyyət təkcə dövlətin deyil, vətəndaşların da üzərinə düşür. Dövlət, zatən, üzərinə düşən bir sıra işləri yüksək səviyyədə görür. Ona görə də burada əsas məsuliyyət cəmiyyətin və tək-tək insanların üzərinə düşür. Hər bir vətəndaş qaydalara əməl etsə, biz sözügedən vəziyyətdən ən az zərərlə çıxarıq. Bu məsələdə də vətəndaşların üzərinə böyük məsuliyyət düşür.

Hazırda Azərbaycanda 18 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. O da məlumdur ki, koronavirus pandemiyası əhali arasında bəzən panikaya da səbəb olur. Belə həssas məqamlarda panikaya yol verməmək, maksimum dərəcədə soyuqqanlı davranmaq lazımdır. Bunun üçün isə cəmiyyət üzərinə düşən işləri yerinə yetirməlidir. Nazirlər Kabineti yanında Operativ qərargah Azərbaycanda martın 14-dən etibarən tətbiq olunan xüsusi rejimin məzmununu açıqlayıb. Həmin qaydalardan çıxış edərək söyləmək olar ki, vətəndaşlar məhdudlaşdırıcı çağırışlara əməl etməli, kütləvi tədbirlərə, qonaqlıqlara, gəzintilərə getməməli, ictimai nəqliyyatdan istifadə, mağazalarda alış-veriş edərkən daha etibarlı qorunmalıdırlar.

*"Hər bir vətəndaş fərd olaraq gigiyena qaydalarına yüksək səviyyədə əməl etməlidir"*

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, koronavirusla mübarizədə əsas məsuliyyət cəmiyyətin üzərinə düşür: "Cəmiyyətin, fərdlərin vəzifəsi odur ki, qoyulan qaydalara yüksək səviyyədə əməl etsinlər. Hər bir vətəndaş fərd olaraq gigiyena qaydalarına yüksək səviyyədə əməl etməlidir. Dövlət üzərinə düşən işi görür. Nazirlər Kabineti əhalinin maarifləndirilməsi istiqamətində də çevik və operativ davranır. Operativ qərargah mövcud vəziyyət və görülən işlərlə bağlı ictimaiyyətə ətraflı məlumatlar verir. Qalır cəmiyyətin bu tövsiyələrə nə dərəcədə ciddi əməl etməsi. O da insanların özündən asılıdır. Bununla belə, bəzi şəxslər yaranmış şəraitdən istifadə edərək şayiə yayır və ictimaiyyətdə süni ajiotaj yaradırlar. Belə hallar da var. Hüquq-mühafizə orqanları - Baş Prokurorluq və Daxili İşlər Nazirliyi cəmiyyətdə panika yaradılmasına xidmət edən şəxslərin müəyyənləşdirilib məsuliyyətə cəlb olunacağı, onlar barəsində ən sərt tədbir görüləcəyinə dair bəyanatla çıxış edib. Göründüyü kimi, Azərbaycan bütün iqtisadi və tibbi gücünü koronavirus əleyhinə yönəldib. Cəmiyyət bu işdə fəal olmalı və dövlətə kömək etməlidir".

***Vidadi ORDAHALLI***

# Yeni dövrün yeni məcburi idarəçilik üsulu - telefon-internet müşavirələri...

**Baş nazir Əli Əsədov mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və dövlət qurumlarının rəhbərlərinə məktub göndərib. Məktubda dövlət qurumlarının rəhbərlərinə koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək və icrasına ciddi nəzarət edilməsi ilə bağlı tapşırıqlar yer alıb:**

*"Proseslərə bu cür çevik reaksiyanın verilməsi, nəticə etibarilə, koronavirusun neqativ təsirlərinin minimumlaşdırılmasına imkan yaradacaq"*

## Vüqar Bayramov: *"Bu kimi məhdudlaşdırıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması məqsədi daşıyır"*



1. İclasların, müşavirələrin və toplantıların yalnız telefon rabitəsi (selektor), mobil və internet vasitəsilə keçirilməsinə üstünlük verilsin; 2. Mümkün olduğu halda, əməkdaşların məsafədən işləmələri məsələsinə baxılsın; 3. 60 yaşdan yuxarı şəxslərin və öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlər tətbiq edilsin; 4. İşçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edilsin; 5. Xüsusi zərurət olduğu hallar istisna olmaqla, bütün ezamiyyətlər dayandırılsın. Ezamiyyətə xüsusi zərurət olduğu hallarda, razılıq alınması məqsədilə dövlət orqanlarının və qurumlarının rəhbərləri tərəfindən Operativ qərargaha əsaslandırılmış rəsmi müraciət edilsin; 6. Əməkdaşların xarici ölkələrə rəsmi səfərləri dayandırılsın.

O cümlədən, qəbul otağında vətəndaşların qrup və fərdi surətdə qəbulları təxirə salınsın, yerlərdə səyyar qəbulların keçirilməsi dayandırılsın, vətəndaşların müraciətlərinin fasiləsiz qəbulu yalnız elektron və telefon rabitəsi vasitəsilə həyata keçirilsin.

Görünən odur ki, müəyyən reallıqlar bu kimi idarəçilik metodlarının tətbiq olunmasını zərurətə çevirir. Məqsəd koronavirusun yayılma risqini önləməkdir. Bu baxımdan sözügedən tədbirləri ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Vüqar Bayramovun sözlərinə görə, indiki dövrdə belə bir qərarın verilməsi vətəndaşların sağlamlığının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir: "Koronavirusla mübarizə bu gün Azərbaycanda prioritet məsələlərdən biridir. Etiraf etmək lazımdır ki, Nazirlər Kabineti tərəfindən proseslərə çevik reaksiya verilir. Proseslərə bu cür çevik reaksiyanın verilməsi, nəticə etibarilə, koronavirusun neqativ təsirlərinin minimumlaşdırılmasına imkan yaradacaq. Məqsəd ondan ibarətdir ki, virusun yayılma risqinin qarşısı alınsın. O baxımdan, bu kimi məhdudlaşdırıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması məqsədi daşıyır. Yəni insanların sağlamlığını qorumaq mümkün olsun və nəticədə virusun yayılma risqi aşağı düşsün. Bu da, təbii ki, məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsini tələb edir. Sözügedən istiqamətdə də addımlar atıldı. O üzdən, yaxın təmaslar nə qədər az olsa, bu bir o qədər faydalıdır. Məhdudlaşdırıcı tədbirlərlə yanaşı, hesab edirəm ki, hökumət tərəfindən biznesə dəstək də verilməlidir. Güman edirəm ki, növbəti addımlar biznesə dəstəklə bağlı olacaq. Bizdə olan məlumata görə, artıq hökumətdə bununla bağlı müzakirələr gedir. Ona görə də bir tərəfdən vətəndaşların sağlamlığının qorunması ilə bağlı addımlar atılır, digər tərəfdən iqtisadiyyatda koronavirusun təsirlərinin minimumlaşdırılması hədəf olaraq qalmaqdadır. Ən əsas məqsədlərdən biri, bütövlükdə, Nazirlər Kabinetinin proseslərə ciddi reaksiya verməsidir. Fikrimcə, bu, koronavirusun təsirlərinin minimumlaşdırılması baxımından çox vacibdir".

***Vidadi ORDAHALLI***

# Koronavirusla mübarizədə rejim qaydalarını pozanların iki min manatadək cərimələnməsi...

**2019-cu ilin dekabrında Çinin əhalisi sıx olan Uhan şəhərində koronavirusun yeni növü qeydə alınıb. Bu ölkədə epidemiyaya yoluxanların sayı 80 mini ötüb, 44,4 min nəfər sağalıb, 2,9 min nəfər ölüb. Xatırladaq ki, dünyada hazırda koronavirus infeksiyasına yoluxanların sayı 91 minə çatıb. Bunların 48 173 nəfəri sağalıb, 3 119 nəfər isə ölüb.**




## Aytəkin Kamranqızı: *"İnsanlar daha az təmas qurduqca, yoluxma ehtimalları da azalacaq"*

Çindən başqa, epidemiya Cənubi Koreya və İtaliyada sürətlə yayılıb. Ümumilikdə, bu günədək dünyanın 72 ölkəsində virusa yoluxma halı qeydə alınıb. Qonşu İranda koronavirusa yoluxma hallarının sayı 1 501-ə yüksəlib, 66 nəfər ölüb, 291 nəfər sağalıb.

Ümumdünya Səhiyyə Təşkilatı koronavirus təhlükəsini çoxsaylı ocaqları olan epidemiya kimi səciyyələndirir. ÜST rəsmisi bildirib ki, təəssüf ki, təhlükə artıq beynəlxalq miqyaslı fövqəladə hal səviyyəsinə çatıb.

Təqdirəlayiq haldır ki, Azərbaycan hökuməti koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirir. Ölkəmizdə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq xəstəxanalar ayrılıb və karantin zonaları yaradılıb.

Adıçəkilən virusun yayılmaması üçün karantin rejiminə əməl etməyənlər isə cəzalandırılacaq.

İnzibati Xətalar Məcəlləsinə bununla bağlı edilən dəyişiklik təklif edilir ki, epidemiya əleyhinə rejimin, sanitariya, gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə ediləcək. Hüquqi şəxslər 2 min manatdan 5 min manatadək cərimələnəcək. Yaxud işlərin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə həbs tətbiq olunur.

Ekspertlər hesab edirlər ki, koronavirusdan qorunmaq üçün dövlət tərəfindən müəyyən olunmuş qaydalara riayət etmək lazımdır.

*"Kimliyindən, yaşından və milliyyətindən asılı olmayaraq, karantin rejiminə, gigiyenik qaydalara riayət etməyən şəxs cəzalandırılmalıdır"*

Sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində qeyd etdi ki, bu gün regionda ən az yoluxma sayı məhz Azərbaycandadır. Bu da yaxşı göstəricidir: "Ancaq bununla kifayətlənmək olmaz. Epidemiyaya müqavimət göstərməyin bir çox elementi mövcuddur ki, onları diqqət mərkəzində saxlamaq lazımdır. İlk növbədə, bütün hökumətlər qadağa tədbirləri qəbul edirlər. Sözsüz ki, bu çox vacibdir. İnsanlar daha az təmas qurduqca, yoluxma ehtimalları da azalacaq. Gigiyenik qaydalara riayət olunarsa, bu sahədə vəziyyət müsbətə doğru dəyişər. Kimliyindən, yaşından və milliyyətindən asılı olmayaraq, karantin rejiminə, gigiyenik qaydalara riayət etməyən şəxs cəzalandırılmalıdır. İnsanlar başa düşməlidirlər ki, karantin rejimi qısa müddət üçün nəzərdə tutulub. İnsanların sağlamlığı üçün gigiyenik qaydalara riayət etmək lazımdır".

***Günel CƏLİLOVA***

# Ermənistandan Rusiyaya daha bir ağır ittiham - "1921-1923-cü illərdə türklərlə birgə 300 min erməni məhv etmisiniz"...

**Məlum olduğu kimi, 16 mart 1921-ci ildə Rusiya ilə Türkyə arasında "Moskva müqaviləsi" imzalanıb. Hər dəfə 16 mart tarixində ermənilər xüsusi canfəşanlıqla həmin müqavilənin ləğvini tələb edirlər. Ən maraqlısı budur ki, əvvəllər müqavilə şərtlərinə görə türkləri lənətləyən ermənilər indi bu sıraya rusların da adını əlavə edirlər.**



Onların aparıcı KİV-i yazır ki, 1921-1923-cü illərdə rus-türk birlikləri ermənilərə qarşı genosid həyata keçiriblər: "Bunun nəticəsində Şərqi Ermənistanda 300 min erməni öldürülüb, 500 mini isə deportasiya edilib".

Ermənilər qeyd edirlər ki, Moskva və Qars müqavilələri dünyada imzalanan razılaşmaların reyestrinə daxil edilməyib və bu səbəbdən də onların ləğvi mümkündür. Maraqlıdır ki, ermənilər bu istiqamətdə nümayiş etdirdikləri yeni siyasətləri ilə öz müttəfiqləri olan rusları da düşmən saydıqları türklərlə eyniləşdirirlər. Bunu niyə edirlər və belə siyasətin nə kimi təsirləri ola bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Moskva və Qars müqavilələrinin denonsasiya edilməsi təsadüfən gündəmə gətirilmir: "Moskva və Qars müqavilələri SSRİ süqut edənə qədər imzası olan tərəflər arasında qətiyyən müzakirə edilməmişdir. Ancaq 1991-ci ildən sonra xüsusən Ermənistan bu müqavilələrdən irəli gələn öhdəlikləri rəsmən tanımayıb və müqavilələrin denonsasiya edilməsini tələb edib.

Ermənilər Moskva və Qars müqavilələrinin ləğv edilməsini müqavilənin hüquqi olaraq 25 illik imzalandığını "təsdiq edən" arxiv sənədlərinə istinadən tələb etdiklərini bildirirlər. Onların iddialarına görə, Rusiyanın Türkiyə səfiri Vinoqradov 1925-ci ildə Türkiyə XİN-ə rəsmi məktub göndərərək, Qars və Moskva müqavilələrinin ləğv edilməsini tələb edib. Vinoqradov məktubda "Biz 25 il gözləyə bilmərik. Müqaviləni zəif olduğumuz zaman imzalamışdıq. Ancaq indi güclüyük və Ermənistan sərhədlərini yenidən bərpa etmək istəyirik" yazmış, İsmət İnönü isə "Yeni dövlət beynəlxalq öhdəliyi yerinə yetirməlidir. 25 il sonra, əlbəttə, Türkiyə bu bölgəni geri verəcək" - deyə cavab vermişdir. Ermənilər bu tarixin 1946-cı il 16 martda bitdiyini və tərəflərin müqavilələri uzatmaq üçün siyasi iradə göstərmədikləri üçün müqavilələrin hüquqi qüvvədən düşdüyünü bildirirlər. Əslində, müqavilənin neçə illiyinə bağlandığı haqda müqavilədə tarix göstərilməyib və bu, ermənilərin növbəti uydurmasıdır".

"Ermənilərin Moskva müqaviləsi ilə bağlı xüsusi canfəşanlığı nəyə görədir" sualına ekspertin cavabı belə oldu: "Müqavilə 16 mart 1921-ci ildə Rusiya və Türkiyə arasında imzalanıb. Moskva müqaviləsinin 3-cü maddəsi: "İmza edən tərəflər, müqavilənin 1 (C) əlavəsində qeyd edilən sərhədləri ilə Naxçıvan kəsiminin qoruyuculuq haqqının heç bir zaman 3-cü bir tərəfə verməmək şərtilə Azərbaycanın himayəsində muxtar bir bölgə qurulması haqqında razılığa gəliblər".

Moskva müqaviləsindəki bu hökm, Qars müqaviləsinin 1-ci və 5-ci maddələri gərəyincə Qars müqaviləsinin tərəfləri olan Türkiyə Cümhuriyyəti, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR tərəfindən də qəbul edilir.

Beləliklə, Moskva müqaviləsinin 3-cü maddəsi Türkiyə və Rusiyaya Naxçıvan üzərində qarantorluq haqqı verir və bu haqqı Ermənistan tanıyır. Bu səbəbdən də ermənilərin canfəşanlığı heç bir fayda verməyəcək".

"Bu məsələdə rusların da adının hallandırılması ermənilərə niyə lazımdır" sualına isə H.Cabbarlı belə cavab verdi: "İkinci Dünya Müharibəsindən sonra Stalinin boğazlar məsələsini gündəmə gətirməsi istisna olmaqla, SSRİ-Türkiyə münasibətlərində ciddi gərginlik yaşanıb. Bu günə qədər Rusiya dövlət rəsmiləri Moskva və Qars müqavilələrinin təktərəfli olaraq denonsasiya edilməsi məsələsini gündəmə gətirməsələr də, bu məsələ Rusiyanın elm və siyasi dairələrində və sosial şəbəkələrdə son illər müzakirə edilir. Hələ ki, Moskva və Qars müqavilələrinin denonsasiya olunması üçün müqavilədə imzası olan tərəflərdən heç biri rəsmi olaraq bu barədə təşəbbüs göstərməyib. Ancaq bu o demək deyil ki, tərəflərdən hər hansı biri buna heç bir zaman təşəbbüs etməyəcək. Bu gün bölgədə təhlükəsizlik mühiti o qədər gərgindir ki, müqavilədə imzaları olan dövlətlərdən Rusiya və Ermənistan bunu edə bilər, xüsusilə də Rusiya.

Ermənistan bu məsələdə Rusiyanı təhrik edən siyasət həyata keçirir və ilk addımı Rusiyanın atmasını istəyir. Ancaq Ermənistan heç vaxt bunu təkbaşına etməyə təşəbbüs belə edə bilməz. Onların rusların da adını özlərinə qarşı "soyqırım" etməkdə hallandırmasının özlərinə böyük mənada ziyanı olacaq. Bu da onu deməyə əsas verir ki, Rusiya bu məsələdə Ermənistana heç vaxt dəstək ifadə etməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# İspaniyada 149, İranda 135 nəfər öldü, ABŞ Müdafiə naziri Esper və müavini karantinə alındı

**ABŞ Müdafiə naziri Mark Esper və müavini koronavirus şübhəsi ilə karantinə alınıb. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Pentaqon nazir Esper və müavini Devid Norquistin təhlükəsizlik məqsədilə karantinə alındığını açıqlayıb.**




ABŞ-ın ən yüksək müdafiə heyətinin digər heyət və qonaqlardan fiziki olaraq uzaq tutulacağını bildirən Müdafiə Nazirliyinin sözçüsü Conatan Hoffman onlar və personalın yalnız telekörpü vasitəsilə əlaqə quracaqlarını deyib.

Pentaqon koronavirusa yoluxanların sayının 37-yə yüksəldiyini də açıqlayıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) koronavirusun müalicəsi zamanı "İbuprofen" və bu tərkibli dərmanların qəbul edilməsi məsləhət görülmür. Təşkilatın mətbuat katibi Kristian Lindmayer bildirib ki, özünümüalicə zamanı "Parasetamol" içmək məqsədəuyğundur.

Qeyd edək ki, koronavirusa 162 ölkədə 185 mindən çox şəxs yoluxub. 7 332 nəfər virusun qurbanı olub.

**İspaniyada koronavirusdan ölənlərin sayı kəskin artdı**

İspaniyada bir gündə koronavirusdan 149 nəfər vəfat edib. "Trend"in məlumatına görə, bunu ölkənin Səhiyyə Nazirliyi bildirib.

Ümumilikdə, ölkədə koronavirusdan ölənlərin sayı 491 nəfərə çatıb.

Həmçinin, daha 1 236 nəfərin koronavirusa yoluxduğu məlum olub. Bugünədək İspaniyada virusa yoluxanların sayı 11 178 nəfər olub.

**Avro-2020 təxirə salındı**

Bu arada, UEFA-nın növbədənkənar iclasında futbol üzrə 2020-ci il Avropa çempionatının təxirə salınması barədə qərar verilib. Qərara əsasən, Avropa çempionatı 2021-ci il iyunun 11-dən iyulun 11-dək baş tutacaq.

Qeyd edək ki, turnir Avropanın 12 şəhərində, o cümlədən Bakıda keçiriləcək.

**İranda koronavirusdan 135 nəfər ölüb**

İranda ötən sutka ərzində yeni koronavirusdan (COVID-19) 135 nəfər ölüb. İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin m?tbuat xidm?tinin müdiri Kiyanuş Cahanpur deyib. Onun sözlərinə görə, ümumilikdə İranda bu virus nəticəsində 988 nəfər ölüb.

Nazirlik rəsmisi ötən sutkada 1 178 nəfərin koronavirusa yoluxduğunu deyib. Əlavə edib ki, ümumilikdə İranda 16 169 nəfər bu virusa yoluxub.

Cahanpurun sözlərinə görə, indiyədək virusdan sağalanların sayı 5 389 nəfər olub.

**İranın səhiyyə naziri kömək istədi**

İranın səhiyyə, müalicə və tibbi təhsil naziri hökumətdən koronavirusla mübarizə məqsədilə 250 milyon avro vəsaitin ayrılmasını istəyib. Bu, İranın səhiyyə, müalicə və tibbi təhsil naziri və İranın Koronavirusla Mübarizə Milli Komitəsinin sədri Səid Nəməkinin İran prezidenti Həsən Ruhaniyə ünvanladığı məktubda öz əksini tapıb. S.Nəməkinin sözlərinə görə, təxminən 20 min çarpayı və tibb işçisi üçün tibbi geyim, maska və tibbi ləvazimata təcili ehtiyac var.

Nəməki əlavə edib ki, cari İran ilində (21 mart 2019-dan başlayaraq) payız fəslində H1N1 qripinin yayıldığı vaxtda və digər səhələrə (yaz fəslində baş verən sel və daşqınlara görə) 600 milyon avro vəsait ayrılmışdı.

İranlı nazir bildirib ki, Çində yeni koronavirusun yayılması ilə bir ay öncədən həmin vəsaitin (600 milyon avro) əsas hissəsi bu virusla əlaqədar dərman preparatlarının idxalına sərf olunub.

**İranda koronavirusla əlaqədar 85 min məhbus müvəqqəti buraxılıb**

İranın məhkəmə sisteminin sözçüsü Qulamhüseyn İsmaili isə İranda yeni koronavirusun yayılması ilə əlaqədar indiyədək 85 min məhbusun müvəqqəti olaraq evə buraxıldığını açıqlayıb. Q.İsmailinin sözlərinə görə, bu, İranda məhbusların 50%-dən çoxu deməkdir.

İsmaili əlavə edib ki, vətəndaşlar üçün təhlükə yarada biləcək məhbuslar, o cümlədən silahlı qarət, kimyəvi turşular səpən müttəhimlər, insan oğurluğu və böyük ölçüdə fırıldaqçılıqla əlaqədar müttəhimlər müvəqqəti buraxılmayıb. "Bundan əlavə, həbsxanalarda məhbusların sağlamlığı ilə əlaqədar davamlı səkildə səhiyyə tədbirləri görülür" -deyə o qeyd edib.

**Qazaxıstanın paytaxtı bağlana bilər**

Qazaxıstanın paytaxtı Nur-Sultanın rəhbərliyi koronavirus təhlükəsi ilə əlaqədar şəhərin bağlanması məsələsini müzakirə edəcək. Səhiyyə Nazirliyinin rəsmi nümayəndəsi Dias Ahmetşaripin sözlərinə görə, bununla bağlı qərar gün ərzində verilə bilər.

Qeyd edək ki, Nur-Sutan şəhərində təkcə bu gün 14 yeni yoluxma faktı aşkar edilib.

Ümumilikdə, ölkədə 27 yoluxma qeydə alınıb.

# Yarıtmaz icra başçıları xalqı hakimiyyətdən narazı salan əsas ünsürlər kimi...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edən zaman bəzi yarıtmaz icra başçılarının fəaliyyəti, qanunsuz əməlləri nəticəsində hakimiyyətin də nüfuzuna zərbə vurulduğuna işarə edib:**

## *Rauf Zeyni: "Onlar bilməlidirlər ki, artıq ölkədə bununla bağlı ciddi proses başlayıb və heç kim məsuliyyətdən yaxa qurtara bilməyəcək"*



"Neftin qiymətinin kəskin düşməsi nəticəsində təbii ki, biz dövlət investisiyalarını kəskin ixtisar etdik. Bunun nəticəsində işsizliyin səviyyəsi artmışdır. Bu da təbiidir. Çünki işsizliyi aşağı səviyyədə saxlamaq üçün dövlət bütün mexanizmlərdən istifadə edir. Əgər biz görsək ki, özəl sektorda haradasa işlər ixtisar olunur, əlbəttə, mənim göstərişimlə dövlət dərhal öz sözünü deməlidir. 2015-2016-cı illərdən başlayaraq mənim tapşırığımla ödənişli ictimai işlər yaradılmışdır. Bu işlərin yaradılmasının əsas səbəbi işsiz qalan vətəndaşların işlə təmin etməkdir. Mənim göstərişimlə bu proqramla əhatə olunan vətəndaşların sayı ildən-ilə artaraq, son məlumata görə, 38 min ödənişli iş yeri yaradılmalı idi".

Dövlət başçısı bildirib ki, bu məqsədlər üçün dövlət büdcəsində 10 milyonlarla manat vəsait nəzərdə tutulur: "Göstəriş vermişdim ki, bu məsələyə çox ciddi nəzarət olunsun. Xüsusilə bölgələrdən gələn siqnallar bu nəzarətin tətbiqinə, əlbəttə ki, imkan yaratmışdı. Çünki bəzi hallarda insanların əməkhaqları verilmirdi, ödəniş kartları icra başçıları tərəfindən qanunsuz olaraq götürülürdü, mənimsənilirdi və s. Belə siqnallar ciddi şəkildə araşdırılmışdır. Bu və buna oxşar cinayətləri törədənlərə qarşı çox ciddi cəza tədbirləri tətbiq edildi. Mən bütün yerli icra orqanlarının nümayəndələrinə xəbərdarlıq etmişdim. İndi isə onların bir neçəsi məsuliyyətə cəlb edildi. Keçirilmiş xüsusi əməliyyatlar nəticəsində onların cinayətləri tam sübuta yetirildi. Əlbəttə ki, indi istintaq gedir, məhkəmə prosesi olacaqdır, ancaq videogörüntülər hər şeyi açıq-aydın göstərir. Bu biabırçı kadrlar, biabırçı davranış bizim üçün böyük ləkədir. Mən bu adamlara etibar etmişəm. Mən bu adamları vəzifəyə təyin etmişəm və vəzifəyə təyin edilərkən bir çox tapşırıqlar, tövsiyələr vermişəm. Onların arasında ən vacibi o idi ki, get təmiz işlə, rüşvət alma, vətəndaşlara kobudluq göstərmə, təkəbbürlü olma, vətəndaşlara dayaq ol, arxa ol, kəndləri gəz, bütün vətəndaşlarla ünsiyyətdə ol. Amma nəyi görürük? Onu görürük ki, bütün bu tapşırıqlara rəğmən, bəzi yaramaz icra başçıları həm özlərini, həm bizim iqtidarımızı biabır ediblər. Onların alçaq hərəkətləri ümumi qınaq obyektinə çevrilib. Onların dövlət mülkiyyətini talaması, sahibkarları incitməsi, sahibkarlardan pul alması, hər bir təyinata görə pul alması, məktəb direktorlarından, xəstəxanalardan aylıq haqq alması allahsızlıqdır və onlar bu cinayətlərə görə cavab verəcəklər. Biz işsiz qalan vətəndaşlar üçün şərait yaradırıq ki, onlar evinə çörək pulu aparsın. O da böyük məbləğ deyil, minimum əməkhaqqı səviyyəsindədir. İndi minimum əməkhaqqı artıb, ona görə bu vətəndaşlar daha böyük məbləğ alırlar. Amma bəzi hallarda bu pullar mənimsənilir. Yaxud da Neftçala rayonundakı cinayətkarlıq hadisəsi barədə mənə məlumat verildi ki, ödənişli işlə təmin edilən 73 nəfəri öz təsərrüfatlarında qul kimi, nökər kimi işlədirdi. Bu nədir? Ağadır, bəydir, xandır? İndi bütün ölkə ona nifrət edir, onun və onun kimilərin biabırçı hərəkətlərinə görə. Hamı bilsin ki, məsələ bununla bitməyəcək. Birinci hadisə oldu eşitmədilər, ikinci hadisə oldu eşitmədilər. Neçəsi həbs olunmalıdır ki, bunlar öz çirkin əməllərindən əl çəksinlər. Bu proses davam etdiriləcək və hamı üçün də dərs olmalıdır. Ona görə bu biabırçı hallarla bağlı daha ciddi addımlar atılacaq".

Prezident icra başçılarının əməlinə çox sərt şəkildə münasibətini açıqladı. Diqqətçəkən məqam budur ki, Prezident belə əməllərin həm də hakimiyyətin imicinə ciddi xələl gətirdiyini qeyd etdi. Yarıtmaz icra başçılarının rüşvətxor, yekəxana əməlləri mövcud iqtidarın hörmətdən salınmasında hansı rolu oynayır?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısını bu fikirləri dəfələrlə səsləndirməyə vadar edən səbəblər var: "İcra başçılarının həbsləri baş verməmişdən də Prezident müşavirələrdə belə xəbərdarlıqları edirdi. İzləyin onun çıxışlarını, bunu görərsiniz. Dəfələrlə tapşırırdı ki, icra başçıları sadə olsunlar, xalqın qayğısına qalsınlar, harınlıq etməsinlər. Təəssüf ki, biz əvəzində başqa mənzərələrin şahidi olduq. Bir icra başçısı həbs ediləndən sonra biz eyni ssenarini başqasının iştirakı ilə gördük. Hər iki halda icra başçısı oturub kabinetində aylıq hesab toplayırdı. Bu mənzərə təbii ki, həm də iqtidarı hörmətdən salır. Prezidentin bu fikirləri ilə tam razıyam. Çünki icra başçılarını rayonlara Prezident təyin edir. Onlar ölkə başçısının yerlərdəki səlahiyyətli nümayəndələri sayılırlar. Bu həm də bir siyasi post tutma anlamını daşıyır. Bəziləri isə göstərilən etimadı doğrultmursa, onda bunun ziyanı hər tərəfə, ən əsası da hakimiyyətin imicinə dəyir. Görürsünüz ki, Prezident sanki bir maarifləndirici tonda xəbərdarlıq edir. Bundan nəticə çıxarılmalıdır. Təəssüf ki, biz ciddi nəticə çıxarmayan vəzifə sahiblərinə də rast gəlirik.

Onlar bilməlidirlər ki, artıq ölkədə bununla bağlı ciddi proses başlayıb və heç kim məsuliyyətdən yaxa qurtara bilməyəcək. Yaxşısı budur korrupsiyaya yox deyə bilməyənlər indidən öz istefalarını versinlər. Əminəm ki, bu islahatların fonunda hakimiyyət öz nüfuzunun qorunmasına ciddi fikir verir və istəməz ki, hansısa yaramaz vəzifə sahibinə görə adına xələl gəlsin. İndiyə kimi belə hallar olubsa, bundan sonrakı siyasi iradə tamamilə belə neqativliklərin yox edilməsini tələb edir. Bununla mübarizədə ictimai nəzarətin də gücü danılmazdır. Yalnız belə üsullarla biz həmin neqativlikləri ifşa edə bilərik. Prezident də çıxışlarında buna çağırış edir. Vətəndaş fəallığı artırılmalıdır ki, yerlərdəki vəzifəli şəxslərin əməlindən xəbər tuta bilək".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ təcavüzkarlığı üzündən regional təcridə düşmüş Ermənistan üçün yeni problem - ordu koronavirusa təslim olur

**Aparılan araşdırmalar hazırda koronavirus təhdidinə qarşı regionda ən zəif ölkə qismində işğalçı Ermənistanın çıxış etdiyini göstərir. Belə görünür ki, bu virus regionda ən çox Ermənistan üçün böyük problem yaradacaq. Bunu düşmən ölkədə də etiraf edənlərin sayı artır. Qeyd edilənlər fonunda Ermənistan üçün qorxu yaradan daha bir məqam yayılan virusun orduya da sirayət edə biləcəyidir.**

Əslində, qeyri-rəsmi məlumatlar artıq koronavirusun Ermənistan ordusu üçün də ciddi problemə çevrilməkdə olduğunu üzə çıxarır. Onsuz da baxımsızlıqdan və müxtəlif yoluxucu xəstəliklərdən əziyyət çəkən bir ordunun koronavirus bəlasına da tuş gəlməsi düşmən silahlı qüvvələrinin daha sürətlə çöküşünə rəvac verən amillərdən saylır. Ermənistanın "Milli gündəm" partiyasının şura üzvü Avetik Çalabyan bildirir ki, belə vəziyyət mütləq mənada Dağlıq Qarabağ münaqişəsinə də öz təsirini göstərəcək. O hesab edir ki, bu halda erməni ordusunun Azərbaycanın qarşısında dayanması daha da çətinləşəcək: "Ermənistanda koronavirusa yoluxmuş yeni hallar təsdiq olunanda təbliğatı dayandırmağa və bütün ciddiliyilə, məsuliyyətlə ölkəni epidemiyadan qorumaq üçün hazırlaşmağa çağırış etmişdim. Amma buna əhəmiyyət verən olmadı. İndi yaranan vəziyyətdə ordunu virusun yayılmasından kənar saxlamaq xüsusi əhəmiyyət kəsb edir, çünki o, ölkənin təhlükəsizliyi üçün katastrofik nəticələrə gətirib çıxara bilər. Təəssüf ki, ötən müddət ərzində infeksiya ölkəmizdə sürətlə yayılmağa başladı. Bu virus Qarabağda yerləşən hərbi hissələrdə genişlənsə, bizi ciddi problemlər gözləyir. Burada ordunun qismən parçalanması belə həyati nəticələrə səbəb ola bilər".

Real durum göstərir ki, əslində, yaxın tezlikdə koronavirus təkcə erməni ordusu yox, bütün Ermənistan üçün ciddi bəlaya çevriləcək. "Qraparak" nəşri də yazır ki, Ümümdünya Səhiyyə Təşkilatının (ÜST) nümayəndələri Ermənistanın koronavirusun öhdəsindən gələ bilməyəcəyi qənaətindədir. Nəşrin məlumatına görə, ÜST-in nümayəndələri bir neçə gün Ermənistanda olub və onlar böyük xəstəxanaların koronavirusa tab gətirməyə hazır olub-olmadığı ilə bağlı monitorinq aparıblar. Xəstəxanalardan birinin məsul şəxsi onların hansı nəticəyə gəldiklərini açıqlayıb: "ÜST hesab edir ki, xəstələr artacağı təqdirdə Ermənistan virusun öhdəsindən gələ bilməyəcək və kənardan kömək olmadan müqavimət göstərmək imkanına malik deyil".

Xəstəxananın nümayəndəsi əlavə edib ki, çarpayıların sayında, dərmanların həcmində də problem var. Rəsmi məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxanların sayı 60-a yaxınlaşır. Ermənistanda koronavirusla bağlı fövqəladə vəziyyət rejimi elan edilsə də, bu da xəstəliyin genişlənməsinin qarşısını ala bilmir. Hətta Ermənistanın baş naziri Nikol Paşinyan və xanımı da koronavirusa yoluxma şübhəsi ilə karantindədir. Erməni baş nazir hazırda qədim Göyçə mahalında yerləşən qərargahındadır. Məlumata görə, Paşinyanın həyat yoldaşı ötən həftə Braziliya prezidentinin xanımı ilə görüşəndən sonra onların koronavirusa yoluxma şübhəsi yaranıb. "Parlaq Ermənistan" partiyasının deputatı Ani Samsonyan bildirir ki, bu durumda Ermənistanda koronavirusa qarşı daha ciddi addımlar atılmalı, məsələn, gələn ay keçirilməsi nəzərdə tutulan referendum ləğv olunmalıdır. Amma onun sözlərinə görə, Paşinyan referendumu təxirə salmaq əvəzinə Göyçədə özünü təcrid edir: "Belə məsuliyyətli məqamda İrəvan merinin də Paşinyandan nümunə götürüb paytaxtda olmadığına təəccüblənmirəm. Çünki o, ümumiyyətlə məsuliyyətsiz bir insan olduğu üçün paytaxtla maraqlanmır. Ancaq məni müxalifətin referendumu təxirə salmağı təklif etdiyi zaman Ermənistanın baş nazirinin "xalqı referendumu təxirə salmaq çağrışları ilə qorxutmayın" deməsi təəccübləndirir. Referendumu təxirə salmaq əvəzinə, Göyçədə özünü təcrid edir". O bildirir ki, tədbirlərin yetersizliyi üzündən koronavirus Ermənistanda sürətlə yayılır. İndi bu virusun orduya sirayət etməsi şəxsi heyət sarıdan onsuz da problem yaşayan Ermənistan üçün çox ciddi məsələ deməkdir. Əslində, yayılan məlumata əsasən, Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində yerləşən erməni hərbi bölmələrində kütləvi xəstəlik yayılıb. Erməni mediası bunun hansısa infeksion xəstəlik yox, məhz koronavirus olması barədə iddialar səsləndirir. Burada erməni əsgərlərin Ağdərə və Xankəndidə yerləşən hospitallara aparıldığı bildirilir. Xəstələrdə müşahidə olunan əsas əlamətlər halsızlıq və kəskin hərarətdir. Bunlar da koronavirusa xasdır və o üzdən demək olar ki, Ermənistan ordusunda da koronavirus yayılıb. Lakin Ermənistan hökuməti, hələ ki, bunu gizlətməyə çalışır. Amma aydındır ki, bu hal uzun sürə bilməz.

Məsələnin maraqlı tərəfi həm də ondan ibarətdir ki, problemi Ermənistan təkbaşına həll etmək və bunun qarşısını almaq gücündə deyil. Belə bir vaxtda Ermənistanda sosial şəbəkələrdə yayılan məlumatlara görə, Qafanda yerləşən hərbi hissələrdən birində xidmət edən hərbi qulluqçu İqor Sarkisyan da koronovirusa yoluxduğu üçün təcili hospitala yerləşdirilib. Hərbi qulluqçunun koronavirusa yoluxduğuna dair xəbər verilməsinə baxmayaraq, bu onun valideynlərindən və ictimaiyyətdən gizlədilir. Hərbi qulluqçu təcrid edilərək karantinə alınıb. Onun ailə üzvləri ilə əlaqə saxlanılmasına da icazə verilmir. Ermənistan rəhbərliyi isə hələ də orduda bu xəstəliyin aşkar edilmədiyi və koronavirusla mübarizə aparmaqla bağlı açıqlamalar verməklə əhalini sakitləşdirməyə çalışır. Amma reallıq tamam başqadır. Xüsusilə Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində acınacaqlı vəziyyət, tibb xidmətinin yarıtmazlığı və tibbi ləvazimatların qıtlığı özünü qabarıq büruzə verir. Şəxsi heyət arasında kəskin respirator xəstəliklərin artması burada az qala adi hal kimi qəbul olunur. Yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün, demək olar ki, hansısa ciddi addım atılmır. Zabit və gizirlərin şəxsi heyətin sağlamlığına biganə yanaşmaqda davam etməsi isə vəziyyəti daha da ağırlaşdırır. Həmçinin əsgərlərin antisanitariya şəraitində xidmət aparması səbəbindən sağlamlıq məsələsi orduda böyük problem kimi özünü büruzə verir. Ermənistan ordusunun böhranlı durumunu göstərən faktlardan biri də odur ki, hərbi qulluqçular arasında xəstələrin sayının kütləvi şəkildə artması nəticəsində hərbi hospitallarda yer çatışmır, buna görə də bir bölgədəki xəstə zabit, yaxud əsgər müalicə üçün çox uzaq məntəqəyə getməli olur. Bu vəziyyət işğalçı ordunun Qarabağ ərazisində yerləşən hərbi hissələrində daha kütləvi hal alıb. Məhz bu vəziyyət üzündən koronavirusun yayıldığı halda qısa müddətdə erməni ordusunu tam çökdürməsi qaçılmaz sayılır.

Bu virusun erməni ordusuna sirayət etməsi, ekspertlərin fikrincə, orduda şəxsi heyət sarıdan yaşanan problemin miqyasını daha da genişləndirəcək. Məlumdur ki, Ermənistan ordusu ildən-ilə daha ciddi şəkildə çağırışçı problemi ilə üzləşir və hərbi hissələrin komplektləşdirilməsi mümkünsüz xarakter alır. Əsas səbəblərdən biri isə Ermənistanda demoqrafik problemin getdikcə daha da dərinləşməsidir. Hazırda Ermənistanda şəxsi heyətlə tam şəkildə komplektləşdirilə bilən hansısa hərbi hissə yoxdur. Əksinə, ordunun şəxsi heyətlə təminatı durmadan pisləşir, real hərbçilərin sayı azalır. Eləcə də qanundankənar halların çox olması üzündən valiydenlər övladlarını ordudan yayındırmağa çalışır. Xüsusən də valideynlər zəbt edilmiş Azərbaycan ərazilərinə övladlarını göndərməkdən qaçır. Bu halda bir məsələ də sirr deyil ki, işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində mövcud olan acınacaqlı vəziyyət, fiziki və mənəvi təzyiqlərə məruz qalma səbəbindən tərxis olunaraq xidmətdən getmək istəyən hərbi qulluqçuların sayı da xeyli artıb. Tərxis olunma ilə bağlı müraciət edənlərin çox olması və şəxsi heyətin çatışmazlığı səbəbindən komandanlıq bu addımı atanları müxtəlif bəhanələrlə ehtiyata buraxmaqdan imtina edir, onları zorla hərbi hissədə saxlamağa çalışır. Bu fonda təsadüfi deyil ki, fərari əsgər sayına görə də Ermənistan ordusu ön sıralardadır. Ekspertlərin fikrincə, acınacaqlı vəziyyətdə qulluq etmək istəməyən əsgərlər hərbi hissələri tərk edir. Məcburi hərbi xidmətdən yayınmaya görə müxtəlif illərdə minlərlə əsgərə cinayət işinin açılması da bunun təsdiqidir. Amma bu da istənilən nəticəni vermir. Artan hərbi itkilər də burada az rol oynamır.

Ümumilikdə son illərdə Ermənistan ordusu cəbhə xəttində, döyüş şəraitində hər il orta hesabla 60-80 arası hərbi qulluqçusunu itirir. Bundan əlavə, hər il 100-dən çox əsgər digər hadisələrdən, məsələn, avtoqəza, silahla ehtiyatsız davranış, xəstəliklər, intihar və digər hallardan dünyasını dəyişir. İndi bütün bunların sırasına orduda koronavirusun yayılması təhdidi də daxil olur. Hesab edilir ki, bu hal daha çox sayda hərbçinin sıradan çıxmasına, eləcə də ordudan yayınanların sayının artmasına gətirib çıxaracaq. Təbii ki, bu hal onsuz da zəif olan Ermənistan ordusunun çöküşünü daha sürətli hala gətirəcək. Belə vəziyyətdə Qarabağ məsələsinin hərbi həllinin akutallaşması isə Ermənistanın üzləşdiyi problemin miqyasının daha ga genişlənməsi, müqavimət imkanlarının daha da azalması deməkdir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiya və Ermənistanda yaranan növbəti fikir ayrılığı yenidən bütün region üçün ciddi təhdid mənbəyinə çevrilib. Söhbət bu fikir ayrılığı nəticəsində "Metsamor" Atom Elektrik Stansiyasının (AES) qəzaya uğrama ehtimalının yüksəlməsindən gedir.**

# Moskva və İrəvanın fikir ayrılığı "Metsamor" təhdidini artırır



Qeyd edək ki, ekoloji cəhətdən təhlükəli "Metsamor" AES-in təmirə dayandırılması müddəti yenidən təxirə salınıb. "Rosatom Servis" şirkətinin baş direktoru Yevgeni Saltıkov qeyd edib ki, tezliklə Rusiya və Ermənistanın maliyyə nazirlikləri İrəvana bu məqsədlə verilən kreditlərin müddəti barədə hələ də razılığa gələ bilmir. "Metsamor" AES-in əsaslı təmirini həyata keçirəcək olan bu şirkət Rusiya hökumətindən 15 il müddətinə alacağı 270 milyon dollarıdək kredit və 30 milyon dollar qrant hesabına fəaliyyət göstərməlidir. Bununla bağlı 2015-ci ildə saziş imzalansa da, ayrılan kredit tam təmir üçün yetərli deyil və üstəlik, erməni tərəfi bu krediti ödəməkdə çətinlik çəkir. Ruslar isə əlavə kredit ayırmaqdan imtina edir. Qeyd olunur ki, bu stansiyada generatorların turbininin dəyişdirilməsi, nüvə reaktorunun metal divarlarının möhkəmləndirilməsi işləri aparılmalıdır. "Metsamor" AES-də ikinci enerji blokunun da istismar müddəti 2016-cı ildə başa çatıb.

Tərəflər arasında razılığın olmaması səbəbindən AES-in modernləşdirmə işlərinin qeyri-müəyyən müddətə təxirə salınması, əslində, düşmən ölkənin özündə də qorxu yaradır. "Rosatom Servis" şirkəti təmirin davamı üçün Ermənistan hökumətindən avans istəyir. Lakin Ermənistan hökuməti razılaşmır və rus tərəfi ilə kredit proqramının heç olmasa 2021-ci ilə qədər uzadılması istiqamətində danışıqlar aparır. 270 milyon dolların ödəniş müddəti 2019-cu ildə başa çatıb. Erməni jurnalistlər Ermənistan Ərazi İdarəetməsi və İnfrastrukturlar Nazirliyindən dəqiqləşdirməyə çalışıblar ki, "Metsamor" AES-in ikinci enerji blokunun modernləşdirilməsinin texniki işləri niyə həyata keçirilmir, gecikmələrin səbəbi nədir və rusların işlərin davam etdirilməsi üçün avans tələb etməsi doğrudurmu. Bir neçə gündən sonra Ermənistan Ərazi İdarəetməsi və İnfrastrukturlar nazirinin müavini Hakob Vardanyan aşağıdakı cavabı verib: "Bildiririk ki, Ermənistan Respublikası hökuməti və Rusiya Federasiyası hökuməti arasında "Ermənistan Respublikası ərazisində atom elektrik stansiyasının istismar müddətinin uzadılması işlərinin maliyyələşməsi üçün Ermənistan Respublikası hökumətinə dövlət ixracatı krediti verilməsi haqqında" 2015-ci ilin 5 fevral razılaşması ilə Rusiya Federasiyasından ayrılan 270 milyon ABŞ dolları kredit vəsaitlərinin istifadə müddəti 2019-cu il dekabrın 31-də başa çatıb. Kredit vəsaitlərinin istifadə müddətinin uzadılması və müvafiq dəyişikliklərin edilməsi məsələləri hazırda rus tərəfi ilə müzakirə mərhələsindədir. Ermənistan AES-in ikinci enerji blokunun istismar müddətinin uzadılmasına yönəlmiş işlər davam etdirilir". Əslində, nazirlik etiraf edir ki, yarım ildən çox davam edən müzakirələr müqavilənin avtomatik olaraq uzadılması ətrafında heç bir müsbət nəticə verməyib. Beləliklə, təmir yarımçıq qalıb və bu da vəziyyəti gərginləşdirir. Artıq köhnəlmiş AES təkcə Ermənistana deyil, bütün regiona ciddi təhlükə mənbəyinə çevrilib.

Ermənistanda bu reaktorun nə dərəcədə təhlükəli olduğunu başa düşən və onun əleyhinə olan insanlar isə indidən həyəcan təbili çalır. Amma Ermənistan hökuməti bu təhlükəli stansiyanın fəaliyyətini dayandırmaqdan imtina edir. Bildirilir ki, Ermənistan özünün enerji tələbatının 40 faizini bu AES-dən alır. Bu durumda Ermənistan rəhbərliyi, yarana biləcək çox böyük təhlükəyə baxmayaraq, AES-in ömrünü uzatmağa çalışır. Amma təmir işlərinin dayanması stansiyada hər an dəhşətli qəzanın ola bilməsini istsina etmir.

Ermənistandakı "Metsamor" AES üçün ən təhlükəli digər məqam həm də onun seysmoloji cəhətdən çox həssas ərazidə yerləşməsidir. Məsələ burasındadır ki, müasir tələblər zəlzələ baş verən anda reaktorun ani dayandırılmasını nəzərdə tutur və bundan sonra təcili olaraq reaktorun soyudulması vacibdir. Bunu yaponlar "Fukuşima-1" AES-də həyata keçirə bilmədilər. Nəhəng sunami dalğaları buna imkan vermədi. Zəlzələ anında reaktor durdurulsa da, onu anında soyutmaq mümkün olmadığına görə partlayış baş verdi. "Metsamor" AES-də də reaktorun anında dayandırılması mümkün olsa da, reaktorun soyudulması üçün hazırlıq işləri yoxdur. Eləcə də "Metsamor" AES-də reaktor çox köhnə olduğuna görə qəza anında xaricə çıxan radioaktiv maddələrin qarşısını alacaq müvafiq avadanlığı, sızma müdafiəsi çox zəifdir. Belə bir vaxtda təmir işlərinin yarımçıq qalması vəziyyəti daha da ağırlaşdırır.

**Bu stansiyada hər hansı ciddi qəza baş verəcəyi təqdirdə təkcə Ermənistanın yox, digər region dövlətlərinin əhalisinin, təbiətinin və iqtisadi həyatının böyük zərər görməsi qaçılmaz sayılır. Bu səbəbdən də həm region dövlətləri, həm qlobal güc mərkəzləri, həm də beynəlxalq təşkilatların "Metsamor" AES-in bağlanması ilə bağlı Ermənistana təziqlərini artırması vacib sayılır. Əks təqdirdə bunun kifayət qədər acınacaqlı nəticələrə gətirib çıxaracağı artıq sirr deyil.**

***Nahid SALAYEV***

**Dünya iqtisadiyyatında yaranan son vəziyyət indi, əksər ekspertlərin fikrincə, yeni qlobal böhranın yaşana biləcəyini qətiyyən istisna etmir. Çünki koronavirus infeksiyasının yayılması qlobal iqtisadi artımın sürətini əhəmiyyətli dərəcədə azaldıb və görünən odur ki, bu proses hələ müəyyən müddət davam edəcək.**

# Bir çox ölkələrin milli valyutaları çökdürülür, Azərbaycan manatı risqlərdən sığortalıdır

Hazırda dünya iqtisadiyyatının artım tempi aşağı düşür, maliyyə sektoru çətin vəziyyətə yuvarlanır, aktivlərin dəyəri azalır. Nəqliyyat və daşımalara qoyulmuş məhdudiyyətlərə görə dünya ölkələrinin yanacağa, başqa sözlə, neftə tələbatı xeyli azalıb və bu hal da qiymətləri aşağı salır. Ekspertlər hesab edir ki, qarşıdakı bir neçə ay ərzində vəziyyət indiki şəkildə davam edərsə, yeni qlobal maliyyə böhranı qaçılmaz olacaq. Bu hal, xüsusən də maliyyə və səhm sektoruna ciddi təsir göstərməkdə davam edir.

Aparılan araşdırmalar həm də bu qənaətə gəlməyə əsas verir ki, bir çox ölkələrdə milli valyutalar da dəyər itirməkdə davam edəcək. Bura Azərbaycana qonşu ölkələr də aid edilir. Yaranmış durumda məhşur "Bloomberg" agentliyi milli valyutaların gələcəyi ilə bağlı maraqlı təhlil hazırlayıb. Həmin təhlildə qeyd olunur:"İnkişaf etməkdə olan bazarların valyutaları 30%-ə qədər ucuzlaşma ilə üzləşəcək. ABŞ-ın səhmləri də, qlobal maliyyə böhranında olduğu kimi, koronavirusa görə ucuzlaşma dalğasına məruz qalacaq. İnkişaf etməkdə olan ölkələrin valyutalarında əhəmiyyətli satış enişlərini nəzərə alaraq, dollar rublla müqayisədə 30%, Çili pesosu ilə müqayisədə 23% daha da güclənə bilər və itkinin 50%-ə qədər artması gözləniləndir. Bunun əksinə, ABŞ valyutasının Çin yuanına qarşı cəmi 1% üstünlük əldə etməsi ehtimalı var. Təhlillər cari hesab kəsirləri və nisbətən likvid maliyyə bazarları olan ölkələrin valyutalarının dolların möhkəmliyinə ən həssas olduğunu göstərir. Bunlara Cənubi Afrika, İndoneziya və Hindistanla yanaşı, Latın Amerikasındakı bir sıra



dövlətlərin milli valyutaları daxildir. Bunun əksinə olaraq, profisiti olan ölkələrin, yəni Tailand və Tayvanın valyutaları möhkəmlənəcək. Rublun mövqeyi sarsılacaq. Rusiyada cari hesabın profisiti olsa da, qlobal iqtisadiyyatdakı eniş və neftin qiymətində sürüşmə ilə bağlı valyutası ağır itkilərə məruz qalır. Tədqiqata daxil olan 17 cütlük arasında Türkiyə lirəsinin dollara qarşı ən böyük potensial enişə məruz qalacağı təsbit edilib, lakin səlahiyyətlilər dəyişdirmə əməliyyatlarına girişi məhdudlaşdırdıqdan sonra valyuta ticarətinin sərbəstliyi azalıb. Koronavirusun amansız yayılması və neft qiymətlərində eniş nəticəsində dollar Çili pesosu ilə müqayisədə 20%, rubla qarşı isə 18% güclənib. İnkişaf etməkdə olan bazarların valyutaları artıq qan axıtsa da, daha çox itki verə bilərlər". Qonşularımızdan Rusiya və Türkiyə ilə yanaşı, Gürcüstan və İran milli valyutaları da dəyər itirir. Gürcüstanda dolların milli valyuta olan lariyə münasibətdə bahalaşması davam edir. Son 5 ildə dollar ilk dəfə olaraq 3 larini keçib. İranda devalvasiya qeydə alınır. Ermənistanda hökumətin milli valyutanı sabit saxlamaq üçün imkanları yoxdur. Özü də bütün bunlar ABŞ-ın dolları ucuzlaşdırmağa çalışdığı bir vaxtda qeydə alınır. Hadisələrin inkişaf axarı göstərir ki, regionda ən dayanıqlı valyuta qismində manat çıxış edir. Azərbaycanın iqtisadi siyasəti və valyuta siyasəti manatın dayanaqlı həddə qalmaqda davam edəcəyini göstərir. Bunu Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov da xüsusi olaraq vurğulayır. O xatırladır ki, Mərkəzi Bank mövcud ehtiyatlarla dollara olan tələbatı ödəmək imkanına malikdir:"ABŞ Federal Ehtiyat Sistemi tərəfindən uçot dərəcəsinin aşağı salınması da Azərbaycan manatına təsir etməyəcək. Federal Ehtiyat Sisteminin uçot dərəcəsini aşağı salması daha çox ABŞ-ın ixrac imkanlarının genişləndirilməsi və səbət valyutalarının dəyərinin artmasının qarşısının alınması məqsədilə qəbul edilib. Bu qərarın qəbul edilməsi həm də ABŞ dollarının səbət valyutalarına nisbətdə möhkəmlənməsi məqsədi güdür. Təbii ki, bu məsələdə dünyanı öz ağuşuna alan koronavirusun rolu böyükdür. ABŞ dollarla bağlı məzənnəni qoruyub saxlamaq üçün bu addımı atmağa məcbur olub. Çünki dolların möhkəmlənməsi ABŞ-ın ixrac imkanlarına mənfi təsir göstərir. ABŞ dollarında ucuzlaşmalar gözlənilmir, amma səbət valyutasına münasibətdə ABŞ dollarının məzənnəsində müəyyən dəyişikliklər olacaq".

Deputat qeyd edib ki, Federal Ehtiyat Sistemi tərəfindən uçot dərəcəsinin aşağı salınması Azərbaycan bazarına ancaq psixoloji təsir göstərə bilər:"Prinsip etibarilə ABŞ dollarının dünya bazarında ucuzlaşması inkişaf etməkdə olan ölkələrin valyutaları üçün cəlbedicidir. Bu da həmin ölkələrdə valyutaya təsirin minimallaşdırılmasına gətirib çıxarır. FES-in uçot dərəcəsini aşağı salmasının Azərbaycanın milli valyutası üçün elə bir təhlükəsi yoxdur. Bu kontekstdə Mərkəzi Bankda manatın dollara nisbəti növbəti dövlərdə də sabit qalacaq. Düzdür, neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar təbii olaraq dollara tələbat artıb. Bu hal nəinki Azərbaycanda, eləcə də Rusiya və Qazaxıstanda müşahidə olunur. Növbəti dövrlərdə manatın məzənnəsi ilə bağlı açıqlama Mərkəzi Bank tərəfindən veriləcək. Mərkəzi Bank mövcud məzənnəni qoruyub saxlamaq, dollara olan tələbi növbəti dövrlərdə ödəmək niyyətindədir".

Digər ekspertlər də bu qənaətdədir ki, böyük valyuta ehtiyatları və Neft Fondunun cari il ərzində təxminən 5 milyard dolları manata çevirmək öhdəliyi də milli valyutanın sabitliyinə təminatdır.

***Ramil QULİYEV***

# Əmək müqavilələrinin uçotuna görə nazirə qarşı kampaniyanın sifarişçisi...

**"Mən sizə göstəriş vermişdim ki, sizin nazirlik çox ciddi monitorinq, uçot aparsın. Onu da bilirəm ki, siz bu uçotu tətbiq etməyə başlayanda yerli icra orqanları tərəfindən böyük müqavimətlə rastlaşdınız".**

*"Çox təəssüf ki, ölkənin içində bunu istəməyən bəzi məmurlar da olub"*

**Yadigar Məmmədli:** *"Ən pisi də odur ki, kimlərsə mediadan öz maraqları üçün bir vasitə kimi istifadə etmək istəyir"*

Bunu Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edərkən deyib. Ölkə başçısının sözlərinə görə, çirkin kampaniya sifarişçilərinə aramızda yer yoxdur: "Sizə qarşı təxribatlar törədildi, eyni zamanda, mətbuatda çirkin kampaniyalar aparıldı. Biz bu kampaniyanın sifarişçilərini də yaxşı tanıyırıq. Onların bizim aramızda yeri yoxdur. Ona görə nazirlik tərəfindən bütün bu işlər tam nəzarətə götürülməlidir".

Görünən odur ki, bir vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən görülən işləri müəyyən qüvvələr tormozlamaq istəyiblər. Bu məqsədlə həmin qüvvələr müxtəlif pozucu kampaniyalara əl atıblar. Ölkə başçısının sifarişçilərin məlum olduğunu deməsi çox ciddi mətləblərdən xəbər verir. Bəlli olur ki, müəyyən qüvvələr əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı aparılan şəffaflaşdırma işlərindən narahat olublar. O səbəbdən belə neqativ xarakterli cəhdlər ediblər və sifarişçilər mətbuatdan öz məqsədləri üçün istifadə etməyə çalışıblar.

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədlinin sözlərinə görə, burada iki məsələ var: "Birincisi ondan ibarətdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı islahatlar həyata keçirilir. Bunu da istəməyən qüvvələr var. Həm ölkə daxilində, həm də ölkə xaricində belə qüvvələr fəaliyyət göstərirlər. Həmin qüvvələr hər vasitə ilə islahatları qaralamaq istəyirlər. Çox təəssüf ki, ölkənin içində bunu istəməyən bəzi məmurlar da olub. Beləlləri çox böyük postlarda çalışıblar. Bunlar mətbuatı əlində alət etməyə və bundan öz məqsədləri üçün istifadə etməyə çalışıblar. Hesab edirəm ki, belə hallar yolverilməzdir. Cənab Prezidentin rəhbərliyi ilə aparılan bu islahatlar qarşısıalınmazdır. Kimlərsə buna mane ola bilməyəcək. Aparılan islahatlar öz məntiqi nəticəsinə çatacaq.




İkincisi, media bütün məsələlərdə böyük gücə malikdir. Ölkədə həyata keçirilən tədbirlərin daha geniş miqyasda yayılmasında, ictimaiyyətə çatdırılmasında müstəsna xidmətləri var.

**Ancaq çox təəssüf ki, bəzən peşəkarlığın az olmasından belə hallar yaranır. Ən pisi də odur ki, kimlərsə mediadan öz maraqları üçün bir vasitə kimi istifadə etmək istəyir. İstəyirlər ki, mətbuat kimlərinsə korporativ maraqlarına xidmət etsin. Hesab edirəm ki, belə hallara yol verməK olmaz".**

***Vidadi ORDAHALLI***

# Özünüməşğulluq proqramı çərçivəsində dövlətin payladığı mal-heyvanlar hansı hallarda dələduzluğun qurbanı olur...

**"Əgər vətəndaşlar dövlət tərəfindən verilən vəsaitə belə yanaşacaqlarsa, bu, dözülməzdir. Bu vətəndaşlara ikinci dəfə heç bir dəstək göstərilməməlidir, o cümlədən, onlar ünvanlı sosial yardımdan da məhrum edilməlidir". Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edərkən deyib.**

*"Dövlətin dəstəyindən sui-istifadə edənlərə əlavə ünvanlı sosial yardımın verilməsi düzgün deyil"*

**Pərviz Heydərov:** *"Bəzi şəxslər özünüməşğulluq layihəsindən düzgün yararlanmaq istəmirlər"*

Prezident qeyd edib ki, bu il, ən azı, 10 min insan bu proqramla əhatə olunacaq: "Proqramla əhatə olunma istiqamətində, əlbəttə ki, nazirlik tərəfindən meyarlar işlənilib, təmin edilib, vətəndaşlar treninqlərdən keçiblər. Ancaq əsas məsələ ondadır ki, vətəndaşları bu işə cəlb edəndən sonra özünüməşğulluqla bağlı monitorinq keçirilsin. Çünki dünya praktikasında özünüməşğulluq proqramı ilə əhatə olunan cəmi vətəndaşların təqribən 50 faizi bu imkandan səmərəli şəkildə istifadə edə bilir. Məsələn, elə hallar var ki, rayon və kənd yerlərində mal-qara ilə təmin olunan vətəndaşların bəziləri o mal-qaranı aparıb bazarda satır və beləliklə məsuliyyətsizlik göstərirlər. Halbuki, bu işdə əsas məqsəd ondan ibarətdir ki, vətəndaşlar verilən vasitələrlə öz dolanışıqlarını sonra özləri təmin etsinlər. Əgər vətəndaşlar dövlət tərəfindən verilən vəsaitə belə yanaşacaqlarsa, bu, dözülməzdir. Bu vətəndaşlara ikinci dəfə heç bir dəstək göstərilməməlidir, o cümlədən, onlar ünvanlı sosial yardımdan da məhrum edilməlidir".

Bəzi vətəndaşlar onlara öz dolanışıqlarını təmin etmək üçün verilən vəsaitdən düzgün istifadə etmirlər.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, vətəndaşların bir qismi heç bir iş görmədən dövlətdən maliyyə dəstəyi almaq istəyir: "Nəzərə almaq lazımdır ki, dövlətimizin həyata keçirdiyi missiyalardan biri də aztəminatlı ailələrə dəstək olmaqdır. Ünvanlı sosial yardımın daha effektli olması üçün ötən il hökumət qarşısında müvafiq vəzifə qoyuldu ki, əhalinin məşğulluğa meyli artsın. Bu çox müsbət tələb idi. Təəssüf ki, qeyd olunan sahədə aidiyyəti qurumların gördüyü iş keyfiyyətsiz formada həyata keçirilir".



Həmsöhbətimizin sözlərinə görə, bəzi şəxslər özünüməşğulluq layihəsindən düzgün yararlanmaq istəmirlər. Onlar istəyirlər ki, dövlət tərəfindən ayrılmış vəsaitdən heç bir iş görmədən istifadə etsinlər. Ancaq o insanlar başa düşmürlər ki, onlara verilən mal-qara və ya texniki avadanlıq həmin insanların sosial yaşayışını təmin etmək üçündür. Dövlətin dəstəyindən sui-istifadə edənlərə əlavə ünvanlı sosial yardımın verilməsi düzgün deyil".

***Günel CƏLİLOVA***

**Günümüzün məşhur elm mərkəzləri, dünyanın böyük alimlərinin toplaşdığı elmi-tədqiqat institutları "COVID-19" virusuna qarşı vaksin hazırlamağa başlayıblar. Bu gün bir sıra elmi mərkəzlər bu virusun qarşısının alınması istiqamətində böyük elmi-tədqiqat işləri aparırlar, amma təəssüf ki, hələ bu virusa qarşı sınaqdan keçən vaksin əldə etmək mümkün olmayıb.**

# Koronavirusa qarşı vaksin hazırlığına Azərbaycan alimləri də qoşula bilər...

***İradə Hüseynova:*** *"Sabah dövlətimiz qərar versə ki, koronavirusla bağlı vaksin hazırlanmalıdır, onda bu işi həyata keçirməyə elmi potensialımız və kadrlarımız var"*

Amma alimlər, biotəbiblər bu istiqamətdə işlərini davam etdirirlər. Doğrudur, bəzi xəbər saytlarında və sosial şəbəkələrdə "COVID-19"a qarşı vaksin tapıldığı barədə təsdiqlənməmiş məlumatlar yer alır.

Azərbaycan alimləri də koronavirusa qarşı elmi mübarizə tədbirlərinə qoşulublar. Mətbuatda yayılan məlumatlara görə, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda artıq bu istiqamətdə fəaliyyətə başlanıb. AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynovanın bildirdiyinə görə, ölkəmizdə bu virusun genomu, quruluşu, mənşəyi, eyni zamanda, vaksinlərin hazırlanması sahəsində dərin biliklərə malik mütəxəssislər var və bu istiqamətdə tədqiqatlar daha da genişləndirilməlidir. "Koronavirusdan qorunma və müalicə üsulları ilə bağlı kitabça və broşürlər hazırlanmalı, insanlara mütəmadi olaraq məlumatlar verilməlidir".

Onun sözlərinə görə, elmi biliklər vasitəsilə ağır xəstəlik və pandemiyalarla mübarizə asan olacaq.

Hazırda ölkəmizdə koronavirusun qarşısının alınması və peyvəndlərin hazırlanması məqsədilə ciddi tədbirlərin görüldüyünü deyən alim bu pandemiyanın dövlət başçısının diqqət mərkəzində olduğunu vurğulayıb.

Koronavirusa qarşı vaksinin hazırlanması üçün Azərbaycan alimləri hansı ölkələrin elmi mərkəzləri, mütəxəssisləri ilə əməkdaşlıq edirlər? Bu vaksin alınarsa, hansı ölkələrə satıla bilər? Elmi-tədqiqat işləri hansısa bir beynəlxalq təşkilatın qrant layihəsidir, yoxsa onu Azərbaycan dövləti maliyyələşdirir? Bu vaksinin sınaqlarının ilk dəfə hansı ölkədə təşkil ediləcəyi gözlənir?

Bu suallarla Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynovaya müraciət etdik. İ.Hüseynova "Bakı-Xəbər"ə bildirdi ki, onun fikri bir qədər təhrif edilib. Hazırda Azərbaycanda koronavirus əleyhinə vaksin hazırlığına başlanmayıb. O qeyd etdi ki, bu vaksinin hazırlanması üçün ölkəmizdə peşəkar kadrlar olsa da, bu prosesin həyata keçirilməsi üçün maddi-texniki baza yoxdur. İ.Hüseynovanın qeyd etdiyinə görə, institutda 2012-ci ildə Molekulyar biotexnologiya laboratoriyası qurulub və laboratoriyaya bu sahədə yüksək səviyyəli mütəxəssis professor Vidadi Yusifov rəhbərlik edir. Bu laboratoriyanın əsas işinin isə yüksək virulentlik qabiliyyətinə malik, dərman preparatlarının təsirinə davamlı patogenlərə qarşı yeni antimikrob birləşmələrin molekulyar əsaslarının işlənib hazırlanması olduğunu deyən İ.Hüseynova onu da bildirdi ki, bundan əlavə, institut tərəfindən iki gənc kadr bu sahədə ixtisaslaşmaq üçün ABŞ-a göndərilib, onlardan biri Rahilə Rəhimova hazırda Fransada çalışsa da, Aytən Ağayeva Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda fəaliyyətini davam etdirir. "Bizim institutda koronavirusla bağlı mütəxəssislərin iştirakı ilə bir müzakirə keçirildi. Bizim institutda 2012-ci ildə beynəlxalq statuslu Molekulyar biotexnologiya laboratoriyası yaradılıb. O laboratoriyanın rəhbəri professor Vidadi Yusifovdur. O, uzun illər ABŞ Fraunhofer Molekulyar Biotexnologiya Mərkəzinə rəhbərlik edib. Bu mərkəzin də əsas işi müxtəlif vaksinlərin, antibiotiklərin hazırlanmasından ibarət olub. V.Yusifovun rəhbərlik etdiyi laboratoriya yarandığı dövrdən biz kadr hazırlığına başladıq və iki gənci Molekulyar Biotexnologiya Mərkəzinə təcrübəyə göndərdik. O gənc xanımlardan biri Rəhilə Rəhimova hazırda Fransada tədqiqatlar aparır, fəlsəfə doktorudur. İkinci xanım, Aytən Ağayeva isə 2018-ci ildə ABŞ-da tədqiqat işlərini başa çatdırdıqdan sonra Azərbaycana qayıdıb və Molekulyar biotexnologiya laboratoriyasında fəaliyyətini davam etdirir. Onun işi vaksinlərin, antibiotiklərin hazırlanması ilə bağlıdır. Azərbaycanda bu işi bilən kadrlar var. Yəni sabah biz bu işi Azərbaycanda qura bilsək, kadr sarıdan heç bir çətinliyimiz yoxdur, biz onu həyata keçirə bilərik. Vaksinin, antibiotikin hazırlanması üçün laboratoriyanın və kadrın mövcud olması ilə yanaşı, güclü maddi-texniki baza, texniki avadanlıqların olması da vacibdir. 2002-ci ildə Sars, 2012-ci ildə Mers koronavirusu mövcud olub. Onlara qarşı da vaksin hazırlanmayıb. İndi dünyada söhbət gəzir ki, koronavirusa qarşı vaksin hazırlanacaq, amma düşünmürəm ki, o bu virusun qarşısını alacaq. Sadəcə, bu gün bu sahədə işləyirlər, tədqiqat aparırlar. Amma digər antivirus preparatları var ki, onlar vaksindən daha böyük effektə malikdir. İndi deyirlər ki, Azərbaycanda vaksin hazırlanır, bu düzgün fikir deyil, ölkəmizdə vaksin hazırlamaq üçün kadrlar var, potensial mövcuddur, amma maddi-texniki baza, təmin olunmuş laboratoriyamız yoxdur. Vaksinin hazırlanması üçün bu şərtlərin olması vacibdir. Bunlar olarsa, əlbəttə, vaksin hazırlığından danışmaq olar".

İnstitutun nəzdində fəaliyyət göstərən Molekulyar biotexnologiya laboratoriyasının vacib texniki avadanlıqlarla tam təmin edilmədiyini deyən İ.Hüseynovanın sözlərinə görə, bu avadanlıqları AMEA-nın maddi imkanları daxilində almaq, quraşdırmaq mümkün deyil. O qeyd etdi ki, dünyada vaksinlərin hazırlanması ilə çox az sayda mərkəz məşğul olur. Azərbaycanda vaksin hazırlanması üçün əvvəlcə bunun strukturunun hazırlanmalı olduğunu deyən akademik hesab edir ki, bunun bir dövlət proqramı da olmalıdır və laboratoriyanın qurulması üçün avadanlıqlar alınmalıdır. Müsahibimiz vurğuladı ki, AMEA-nın müxbir üzvü Tərlan Məmmədovun rəhbərlik etdiyi Molekulyar biomühəndislik laboratoriyası da var və o da uzun illər Molekulyar Biotexnologiya Mərkəzində çalışıb: "Tərlan Məmmədovun da işi vaksinlərin hazırlanması ilə bağlıdır.

O da çox peşəkar bir mütəxəssisdir. Yəni demək istəyirəm ki, peşəkar kadrlarımız var. Bu sahədə tədqiqat işləri genişləndirilməlidir. Bu da, vurğuladığım kimi, uyğun avadanlıqların olmasını tələb edir. Biz viruslarla işləmişik, mövcud laboratoriyamızda diaqnostika işləri tam həyata keçirilib, bunun üçün kadrlarımız da, laboratoriyamız da, uyğun kimyəvi reaktivlərimiz də var. Ancaq koronavirusla bağlı biz hansısa bir insanla işləməmişik. Ancaq sabah dövlətimiz qərar versə ki, koronavirusla bağlı vaksin hazırlanmalıdır, onda bu işi həyata keçirməyə elmi potensialımız və kadrlarımız var. Əsas məsələ lazımi texniki avadanlıqların olmasıdır" - deyə İ.Hüseynova qeyd etdi.



*"...güclü maddi-texniki baza, texniki avadanlıqların olması da vacibdir"*

***İradə SARIYEVA***

# Məscid və mərasim evlərində kütləvi ibadət tədbirləri nə dərəcədə risq mənbəyi sayılır...

**Bu gün bütün dünya koronavirusla sınağa çəkilir. Dünyanı təhdid edən, saysız insanın həyatını əlindən alan, sağlamlığına zərər yetirən koronavirusla mübrizədə ən böyük dövlətlər belə aciz duruma düşüb. Azərbaycanda da koronovirusun yayılmaması üçün dövlət səviyyəsində ciddi tədbirlər görülür.**

*"...insanların kütləvi olaraq qatıldığı cümə namazları zamanı koronavirusla bağlı..."*

İnsanların kütləvi toplaşdığı yerlərin karonavirusun yayılma risqini artırdığı məlumdur. Bu üzdən də kütləvi yerlərə toplaşma ilə bağlı konkret qadağalar mövcuddur. Ölkəmizdə minlərlə inanclı şəxs məscidlərdə ibadət etməyə üstünlük verir. Xüsusən də camaat namazı, cümə namazı vaxtı məscidlərə insanların kütləvi gəlişi baş tutur.

Bildiyimiz kimi, artıq bir sıra ölkələrdə, o cümlədən də Türkiyədə cümə, camaat namazlarının məscidlərdə qılınması qadağan edilib. Əlbəttə, dini ibadət yerlərinə daha çox insanın axın etməsini nəzərə alsaq, burada virusun yayılma risqi daha böyükdür.

Azərbaycan məscidlərində cümə, camaat namazının qılınması ilə bağlı rəsmi qadağa mövcud olmasa da, inanclı şəxslərin könüllü olaraq məscidlərə namaza gəlməməsi indiki zamanda arzuediləndir. Azərbaycan məscidlərində koronavirusun yayılma risqi varmı?

İlahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, insanların kütləvi toplaşdığı, sıx əlaqədə olduğu istənilən tədbirdə, mərasimdə koronavirusun yayılma risqi böyükdür. İlahiyyatçı hesab edir ki, ölkəmizin və dünyanın koronavirusla mübarizə apardığı bir dövrdə inanclı şəxslər də kütləvi toplantılardan bu bəla sovuşana qədər çəkinməlidirlər. Onun sözlərinə görə, burada bir-iki adamın taleyindən söhbət getmir, böyük bir kütlənin sağlamlığının risq altına düşməsindən gedir: "Koronavirus təhlükəsi ilk başladığı vaxtdan dünyada ciddiyə alınmasa da, bu virusun törətdiyi fəsadlar insanları, ölkələri onu ciddiyə almağa vadar etdi. Hesab edirəm ki, bu virusun yayılması havadandır və o sanki bir bioloji silah kimi havada yaradılıb. Ümumiyyətlə, insanların kütləvi toplaşmasına bu şəkildə məhdudiyyət qoyulması müsbətdir. Məscidlərə gəlincə, məscidlər də insanların kütləvi toplaşdığı yer olduğu üçün, daha çox diqqəti cəlb edir. Məscidlərin insanların kütləvi axın etdiyi məkanlar olduğunu nəzərə alaraq qeyd etməliyəm ki, orada da gigiyenik qaydalar qorunmalı, bu məkanlarda tez-tez dezinfeksiya işləri aparılmalıdır. Koronavirus təhlükəsinin olub-olmamasından asılı olmayaraq, bu faktor məscidlərdə ciddiyə alınmalıdır. Çünki başqa məkanlardan fərqli olaraq, məscidlərə insanlar ayaqqabılarını soyunaraq corabla daxil olurlar. Corab və ayaq da bakteriyanın daşıyıcısıdır, bu səbəbdən də məscidlərdə daha çox dezinfeksiya işləri görülməlidir. Məscidlərdə camaat namazına gələn adamların hansındasa koronavirus olmaya bilər, amma onların özlərinə məxsus, lakin yayılma ehtimalı böyük olan xəstəlikləri ola bilər. Xəstəliklər də koronavirusa adekvat bir xəstəlik kimi daha çox insanları yoluxdura bilər. Viruslar qapalı məkanda daha çox aktivləşə bilər, ola bilsin ki, kimdəsə koronavirusun simptomları var. Bu mənada ehtiyatlı olmaq lazımdır. Doğrudur, ölkə sərhədləri koronavirus təhlükəsinə görə bağlanıb və karantin tədbirləri ilə əlaqədar bu məsələ ciddi nəzarətdədir. İnsanların kütləvi toplaşdığı məscidlərdə nəfəs çoxluğu olur və burada da sözsüz ki, virusun yayılma təhlükəsi ola bilər. Bu ehtimal varsa, məscidlərdə də kütləvi ibadətlər müvəqqəti olaraq məhdudlaşdırılmalıdır. Çünki Qurani-Kərimdə də "özünüzü təhlükəyə atmayın" kimi ayə var. Digər tərəfdən də xüsusi mötəbər kitablarımızda qeyd edilir ki, ibadət zamanı ata-ana insanı çağırsa, yaxud hansısa bir ciddi insan gəlib səndən yardım, kömək istəsə, hətta borclu belə gəlib səndən borcunu istəsə, namazı kəsmək olar.

## *Hacı Təyyar Hüseynli: "Ümumiyyətlə, insanların kütləvi toplaşmasına bu şəkildə məhdudiyyət qoyulması müsbətdir"*



Namazı kəsmək şərti belədir: ibadəti kəsmək şərtlərinin zəruri olduğu yerlər. Yəni məscidlərə toplaşmaq, ibadət etmək İslam dinində olan ibadət mühitinə ziyan vuracaqsa, istisna olaraq, İslam dinində qabaqlayıcı şərtlər var. Bu mövcuddur. Bu gün kütləvi keçirilən cümə, camaat namazlarında müsəlman toplumu, xalqımız, dövlətimiz üçün hər hansı bir zərərli siqnal ehtimalı varsa, dərhal ziyana qarşı istisna hal olaraq bəzi ibadətlərin kütləviliyi dayandırılmalıdır. Məscidlərdə həftədə bir dəfə baş tutan və insanların kütləvi olaraq qatıldığı cümə namazları zamanı koronavirusla bağlı hər hansı bir təhlükə ehtimalı ola bilər".

H.T.Hüseynli qeyd edir ki, ümumiyyətlə, insan faktorunun olduğu hər bir kütləvi məkanda bu virusun yayılma ehtimalı var və insanlar təkcə özlərinin deyil, həm də bütün cəmiyyətin təhlükəsizliyini qorumağa borcludurlar.

***İradə SARIYEVA***

### İran və Gürcüstandan sonra Azərbaycanla Rusiya arasında da minik avtomobilləri ilə gediş-gəliş dayandırıldı

**Koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı mübarizə tədbirləri çərçivəsində Nazirlər Kabineti yanında operativ qərargahın tətbiq etdiyi qaydalara əsasən, hazırda Gürcüstan və İran İslam Respublikasından şəxslərin və yüngül minik nəqliyyat vasitələrinin gediş-gəlişinə qadağa qoyulub.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı Xəbər"ə verilən xəbərə görə, martın 18-dən bu məhdudiyyətlər Rusiya Federasiyası ilə sərhəddə yerləşən gömrük-sərhəd keçid məntəqələrində də tətbiq ediləcək.

Dövlət Gömrük Komitəsinə çoxsaylı müraciətləri nəzərə alaraq bir daha bildiririk ki, bu məhdudiyyətlər yalnız sərnişinlərə və yüngül minik avtomobillərinə aiddir. Yük nəqliyyat vasitələrinin gediş-gəlişində hər hansı məhdudiyyət yoxdur.

Virusun geniş yayıldığı İran İslam Respublikasından Azərbaycana gələn nəqliyyat vasitələri bir neçə mərhələdə dezinfeksiya edildikdən sonra sərhədə yaxın ərazidəki xüsusi terminala yönləndirilir. Terminalda yüklər Azərbaycan Respublikası qeydiyyat nişanlı nəqliyyat vasitələrinə boşaldılaraq təyinat nöqtəsinə yola salınır.

Tranzit yükləri daşıyan nəqliyyat vasitələrinin isə ölkə ərazisində hərəkəti Dövlət Yol Polisinin müşayiəti altında həyata keçirilir.

Digər ölkələrdən daxil olan yük nəqliyyat vasitələri isə dezinfeksiya işləri aparıldıqdan sonra təyinat nöqtələrinə yola salınır.

Hazırda Dövlət Gömrük Komitəsi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir, ticarətin asan, maneəsiz və sürətli şəkildə həyata keçirilməsi istiqamətində bütün zəruri addımlar atılır.

Xarici ticarət iştirakçılarının diqqətinə onu da çatdırırıq ki, Novruz bayramı ilə əlaqədar qeyri-iş günlərində, 20 mart tarixi də daxil olmaqla bütün gömrük idarələrində gömrük rəsmiləşdirilməsi fasiləsiz olaraq həyata keçiriləcək.

# Gömrük Komitəsində də koronavirusla mübarizəyə uyğun olaraq vətəndaşların qəbul qaydası dəyişdi

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, koronavirus infeksiyasının (COVID-19) ölkə ərazisində yayılmasının qarşısının alınması istiqamətində Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən müəyyənləşdirilmiş sosial izolyasiya tədbirlərinə uyğun olaraq, 17 mart 2020-ci il tarixdən Dövlət Gömrük Komitəsində vətəndaşların qəbulu və şifahi müraciətlərə baxılması işində müəyyən məhdudiyyətlər nəzərdə tutulub.**




Qəbul otağında vətəndaşların fərdi surətdə qəbulu təxirə salınıb.

Fərdi qəbul üçün vətəndaşlardan Komitəyə gəlməmələri xahiş olunur.

Müraciətlər yalnız elektron və telefon vasitəsilə qəbul ediləcəkdir.

Vətəndaşlar müraciətlərini yazılı şəkildə public@customs.gov.az elektron ünvanına göndərə və ya Komitənin rəsmi internet saytında fəaliyyət göstərən Komitə sədri ilə birbaşa əlaqə (virtual qəbul) bölməsinə ünvanlaya bilərlər.

Şifahi müraciətlərin, Dövlət Gömrük Komitəsinin fəaliyyətilə bağlı suallarların cavablandırılması üçün Komitənin 195/6 nömrəli "Çağrı Mərkəzi" ilə əlaqə yaradılması xahiş olunur.

Gömrük prosedurları ilə bağlı Komitə səviyyəsində həll edilməsi zərurəti yaranmış məsələlərlə əlaqədar vətəndaşlar 012-404-22-38 nömrəli telefonla "Qaynar xətt" vasitəsilə müraciət edə bilərlər.

**Bu il fevralın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 117,2 min nəfər və ya 7,7% artaraq 1 641 min nəfər olub, onlardan 911,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 729,1 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.**

# Azərbaycanda muzdla çalışanların sayı çoxalır - prosesin iqtisadi əsasları...



## *Əli Əlirzayev: "Kölgə iqtisadiyyatına qarşı görülən mübarizə tədbirləri muzdla çalışanların sayının artmasına səbəb olub"*

Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, muzdla işləyənlərin 20,5%-i təhsil, 18%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 13,2%-i sənaye, 8,2%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2%-i tikinti, 6,9%-i dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,6%-i nəqliyyat və anbar təsərrüfatı, 3,4%-i peşə, elmi və texniki fəaliyyət, 3,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7%-i maliyyə və sığorta fəaliyyəti, 13%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

Ötən illə müqayisədə muzdla çalışanların sayının artması barədə fikir bildirən iqtisadçı-ekspert Əli Əlirzayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ötən illə müqayisədə muzdla çalışanların sayı artıb: "Məlumdur ki, işçilər rəsmi qaydada işə götürülür. Bununla yanaşı, işə götürülən işçilərin sayı ötən illərlə müqayisədə gizlədilmir. Məlumdur ki, hansısa sahibkar bunu etsə, o, inzibati qaydada cərimələnir. Kölgə iqtisadiyyatına qarşı görülən mübarizə tədbirləri muzdla çalışanların sayının artmasına səbəb olub".

Həmsöhbətimiz onu da əlavə etdi ki, sahibkarlığın inkişafı məqsədilə görülən tədbirlər sayəsində iş yerlərinin sayı artır.

**Muzdla işləyənlərin müəyyən faizi təhsil, ticarət, nəqliyyat vasitələrinin təmiri, sənaye, həmçinin, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, tikinti, nəqliyyat və anbar təsərrüfatı, eyni zamanda, 3,4%-i faizi peşə, elmi və texniki fəaliyyət və digər iqtisadi sahələrdə çalışıb.**

***Günel CƏLİLOVA***

**Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən koronavirusun yayılmasının qarşısının alınması üçün müxtəlif sahələrdə təhlükəsizlik tədbirləri həyata keçirilir. Artıq Azərbaycanda da karantin elan edilib və insanların kütləvi getdiyi məkanlar müvəqqəti olaraq qapadılıb.**

# Muzeylərimizdə virtual səyahətlər varmı...

*__Sədi Mirzəyev:__ "Əməkdaşlarımız hazırda muzeyin ekspozisiyası ilə bağlı onlayn materiallar hazırlayırlar"*

*__Ülvina Fərzəliyeva:__ "Biz martın 17-dən muzeydə onlayn xidmətə başlayırıq"*

*__"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi:__ "16-20 mart 2020-ci il tarixlərində "İçərişəhər" Muzey Mərkəzinin muzey və ekspozisiyaları #MuseumFromHome heşteqi altında sizinlə onlayn ünsiyyət yaradacaq"*

Muzeylər də insanların maraq göstərdiyi məkanlardan biridir və koronavirus təhlükəsi ilə bağlı artıq Azərbaycan muzeylərinə də giriş qadağan edilib. Məlumdur ki, bir müddət əvvəl dünyanın bir sıra populyar muzeyləri də qapadılıb və onlar seyrçilərə virtual və onlayn xidmətlər göstərirlər. Yeni seyrçi asanlıqla muzeyin müvafiq saytına daxil olur və oradan virtual olaraq muzeyin ekspozisiyası ilə tanış olur.

Azərbaycan muzeylərinin onlyan, virtual xidmətə hazır olub-olmadığını araşdırmaq məqsədilə paytaxtın bir neçə muzeyinin rəsmi saytına daxil olduq. Təəssüf ki, burada qarşımıza onlayn xidmət çıxmadı. Bunun səbəbini öyrənmək üçün muzeylərin özləri ilə əlaqə saxladıq. Qeyd edək ki, əlaqə saxladığımız muzeylərin çoxunun saytında virtual xidmət olmamasının səbəbini onlar texniki imkansızlıqla əlaqələndirdilər.

Azərbaycan İstiqlal Muzeyinin direktor müavini Sədi Mirzəyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onlayn xidmətlə bağlı artıq Mədəniyyət Nazirliyindən muzeylərə təlimatlar göndərilib: "Əməkdaşlarımız hazırda muzeyin ekspozisiyası ilə bağlı onlayn materiallar hazırlayırlar. Biz bu materialları Azərbaycan, rus və ingilis dillərində hazırlayırıq. Onlayn materiallar hazır olduqdan sonra biz onları muzeyimizin "Facebook" və digər sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirəcəyik. İstənilən tamaşaçı həmin videogörüntülərə baxmaqla muzeyimizin ekspozisiyası ilə rahatlıqla tanış ola biləcəklər".



Həmin onlayn xidmətin muzeyin rəsmi səhifəsində hansı səbəbdən yerləşdirilməməsinə gəlincə, S.Mirzəyev qeyd etdi ki, vaxt az olduğundan, onlayn süjetləri saytda yerləşdirmək çətinlik törədir, burada, həmçinin, texniki əngəllər də mövcuddur.

Azərbaycan Milli Xalça Muzeyinin mətbuat xidmətinin rəhbəri Ülvina Fərzəliyeva bildirdi ki, martın 17-dən muzeydə onlayn xidmətə start verilir: "Biz martın 17-dən muzeydə onlayn xidmətə başlayırıq. Milli Xalça Muzeyinin ekspozisiyasında yenilənmələr var. Onlayn xidməti yenilənmiş ekspozisiya ilə davam etdirəcəyik. Muzeyin ekspozisiyasının bağlı olmasına baxmayaraq, hazırda əməkdaşlarımız işdədirlər və tamaşaçılarımıza onlayn xidmət göstərəcək".

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən aldığımız məlumata görə, Nazirlər Kabineti yanında Operativ qərargahın 14 mart 2020-ci il tarixli qərarına (ölkə ərazisində bəzi sosial izolyasiya tədbirləri) əsasən, "İçərişəhər" Muzey Mərkəzinin bütün muzey və ekspozisiyaları iş fəaliyyətini dayandırıb: "Bununla əlaqədar 16-20 mart 2020-ci il tarixlərində "İçərişəhər" Muzey Mərkəzinin muzey və ekspozisiyaları #MuseumFromHome heşteqi altında sizinlə onlayn ünsiyyət yaradacaq. Gündə 2 dəfə saat 12:00-da və 15:00-da canlı yayımlar, digər vaxtlarda isə 3 D virtual gəzinti, kiçik videoçarxlar, maraqlı fotoşəkillərin tarixçələri təqdim olunacaq. Beləliklə, evdə oturduğunuz halda, virtual olaraq, İçərişəhərin muzey və ekspozisiyalarını ziyarət edə biləcəksiniz.

Bu zaman Siz "İçərişəhər" Muzey Mərkəzinin mütəxəssisləri tərəfindən Qız Qalası, Şirvanşahlar Sarayı Kompleksi, Qala Dövlət Tarix Etnoqrafiya qoruğu haqqında, eləcə də bəzi maraqlı və unikal memarlıq abidələri, eksponatlar barədə canlı olaraq sual-cavabda iştirak etməklə məlumat ala biləcəksiniz".

Qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin təmirdən sonra açılışı olmadığı üçün, muzeyin onlayn xidmət göstərib-göstərməyəcəyi haqda hər hansı bir məlumat əldə edə bilmədik.

***İradə SARIYEVA***

№ 48 (4179) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

18 MART 2020-ci il

www.baki-xeber.com

# "WASP-76b" adlı planetdə göydən isti dəmir yağır



**"Milli.Az" xəbər verir ki, göy cisimlərini araşdıran alimlər Avropa Astronomik Araşdırma Mərkəzinə aid irihəcimli teleskopla etdikləri müçahidəni "Nature" jurnalında yayımlayıblar.**

Müşahidələr elm adamlarına gün ərzində temperaturun 2 min 400 dərəcədən çox olduğu planetdə göydən isti dəmir yağdığını göstərib. İspaniya astrologiya mərkəzinin işçisi Maria Roza bu haqda danışaraq bildirib ki, "Müşahidələr dəmir buxarının "WASP-76b" planetində gündüzlər atmosferdə dəmir buxarının miqdarı çox olur. Dəmirin bir qismi planetin dönməsi və külək səbəbi ilə gecə tərəfinə keçir. Gecə soyuyan dəmir buxarı, maye hala keçib yağmağa başlayır".

Cenevre Universitetinin elmi işçisi David Ehrenrech "BBC news"e verdiyi açılamada "Göydən su damlalarının çisələnməsi yerinə isti təmir xəyal edin", - sözlərini deyib. "WASP-76b", dünyaya 640 işıq ili uzaqlığındadır.

## Dünyanın ən gənc astronavtı kosmos çamadanını hazırladı

**NASA-nın 2033-cü ildə reallaşdırmağı planlaşdırdığı ilk Mars səfərinə qatılacaq astronavtlardan biri olan Alissa Karson, Horizn Studios ilə birlikdə "ağıllı" bir kosmos çamadanı hazırladı.**

ABŞ-ın Baton Ruj şəhərində yaşayan dünyanın ən gənc astronavtı Alissa Karson, təlimlərinə davam edir. 18 yaşlı gənc, dünyanın ilk kosmos çamadanını hazırlamaq üçün "ağıllı" səyahət məhsulları markası Horizn Studios ilə birlikdə işləyir. "Horizn ONA" adı verilən çamadan, karbon lifdən hazırlandı və bu da, indiyə qədər hazırlanmış çamadanlardan daha elastik, daha möhkəm və daha yüngül olmasını təmin edir. Çamadan, elektromaqnetik döşəməsi sayəsində qravitasiyasız mühitdə asan daxilolma üçün kosmos vasitəsinin döşəməsinə və ya divarlarına yapışa bilir. "Horizn ONA", elektronik cihazları kabelsiz olaraq enerji ilə təmin edə bilməyi də təmin edir. Bundan əlavə, üzərindəki "ağıllı" ekranı, astronavtların dünyadakı sevdikləri ilə video paylaşmasına imkan verir. Çamadan, maksimum yığma məhsuldarlığı təmin etmək üçün vakuumlama funksiyasına da sahibdir. Çamadanın dizaynında işləyən Alissa Karson, 2033-cü ildə reallaşması planlaşdırılan ilk Mars səfərinə qatılacaq namizədlərdən biridir və Marsa ayaq basan ilk insan olmağı hədəfləyib.

## "Azercell"dən rominqdə olan abunəçilərinə dəstək və TƏBİB "Qaynar xətt"inə pulsuz zənglər imkanı!

**Yerli bazarın lider mobil operatoru "Azercell Telekom" MMC Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının (COVİD-19) qlobal pandemiya elan olunduğunu nəzərə alaraq, hazırda ölkə hüdudlarından kənarda olan abunəçilərinə xüsusi diqqətlə yanaşır.**

Belə ki, "Azercell" şirkəti hazırda Azərbaycanla nəqliyyat əlaqələri məhdudlaşdırılmış ölkələrdə olan və rominq xidmətindən istifadə edən abunəçilərin balansına ailələri və yaxınları ilə kəsintisiz rabitə əlaqəsini təmin etmək məqsədilə 50 AZN məbləğində pul vəsaiti yükləyib. Həmçinin, mart ayının 17-dən etibarən mobil operator bütün müştəriləri üçün Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nəzdində fəaliyyət göstərən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin (TƏBİB) "Qaynar xətt"inə (1542) zənglərin ödənişsiz olmasını təmin edib.

Qeyd edək ki, hazırda "Azercell"in Telefon Mərkəzi və Onlayn Müştəri Xidmətləri də gücləndirilmiş iş rejimi ilə çalışır. Belə ki, şirkət rominqdə olan abunəçilərinə müvafiq səfirliklərin əlaqə nömrələrinin təqdim edilməsi, habelə TƏBİB-in "Qaynar xətt"i ilə əlaqə saxlanması istiqamətində hər cür dəstək göstərməyə hazırdır. Xatırladaq ki, rominq zamanı "Azercell"in Fakturalı Xətt abunəçiləri +994506565000, Fakturasız Xətt (Sim-Sim) abunəçiləri isə +994502002111 nömrələri vasitəsilə mobil operatorun Telefon Mərkəzi ilə tamamilə ödənişsiz əlaqə saxlaya bilərlər.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Azercell"lə İlaxır çərşənbəniz mübarək olsun!

**Novruz adət-ənənəsinə görə, hər çərşənbə təbiətin Su, Od, Yel və Torpaq kimi 4 əsas ünsürünün oyanması qeyd edilir. Novruz bayramı ərəfəsində İlaxır çərşənbədə də "Azercell" abunəçilərini yeni təklifi ilə sevindirəcək.**

Belə ki, məhz 17 mart Torpaq çərşənbəsində abunəçilər "GəncOl 9" tarifi çərçivəsində mobil internetə 33% endirim əldə edərək 6GB internet paketini sadəcə 6 AZN məbləğinə əldə edə biləcək. Qoşulmaq üçün abunəçilər 7575 qısa nömrəsinə "G9" yazaraq göndərməli və ya endirimi "Kabinetim" mobil tətbiqində aktivləşdirməlidir.

Xatırladaq ki, "Azercell" fevral ayının 25-dən başlayaraq hər çərşənbə axşamı xüsusi endirim kampaniyaları keçirir və müxtəlif tarif və internet paketlərinə qoşulma zamanı endirimlərdən yararlanmaq imkanı yaradır. Mobil operator ötən həftələrdə "Sərbəst 15" paketinə 20%, "Limitsiz Gecə" paketinə 50% ,"Aylıq 30 GB" internet paketinə qoşularkən isə 20% xüsusi endirim təqdim edib.

"Azercell" yalnız bayram günlərində deyil, eləcə də bütün il boyu evlərinizin sevinclə dolu olmasını arzu edir!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Bədəlov Tural Vahid oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş gizirin şəxsi vəsiqəsi (SQ N0015534) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Ayın Şir bürcü ilə münasibətləri bu gün emosiyaların çılğınlığını və gözləntilərin artımını vəd edir. Yaxınlarınıza, sevdiyiniz insana, ailə üzvlərinə diqqət ayırmağı unutmayın. Alış-veriş bu gün sizə həzz verə bilər.



**Buğa** - Bu gün yaranan problemlərin aradan qaldırılması və səhvlərin çözülməsi ilə məşğul olacaqsınız. Verilən tapşırığı vaxtında yerinə yetirin. Özünüz tapşırıq verəndə, dəqiq və konkret olun.



**Əkizlər** - Fəal olun, tənbəllik nümayiş etdirməyin. Bununla belə, macəralar aramayın. Günün ikinci yarısı sürprizlər bəxş edə bilər. Planlarınızı dəyişmək və ya açıqlama vermək istəsəniz, ilkin impulsun keçməyini gözləyin.



**Xərçəng** - Bu gün həyatınız daha dolğun, daha zəngin olacaq. Şəxsən sizdən asılı olan uğurları və nəticələri möhkəmləndirin. Nədənsə imtina ehtiyacı yarana bilər. Lakin daha fərqli imkanlar yaranacaq.



**Şir** - Mürəkkəb və ağır gündür. Üreyiniz, ruhunuz bayram istəyir, amma yaşamın ağır şərtləri buna imkan vermir. Günün ortasında ictimai yerlərdə çox qalmayın. Bahalı əşyalarınız və ya dəyərli nəsnənizə diqqət yetirin.



**Qız** - Bu gün təhlükəsiz zona və davranış üsulunu seçərək axınla hərəkət edin. Yaşamın və şəraitin ssenarisini başqalarının yönəltməsinə mane olmayın. Qayğıları da, təbii ki, başqaları çəkməlidir.



**Tərəzi** - Ətrafınızdakı insanların sizə təsir, yaxud təziq etmələrinə imkan verməyin. Zənginiz və ya söhbətinizə sevinəcək insanla əlaqə saxlayın. Dostları unutmayın. Ailə üzvlərinin problemləri ilə mütləq şəkildə maraqlanın.



**Əqrəb** - İş yoldaşları, tərəfdaş və şəriklərlə ünsiyyətdə diqqətli olun, onların hisslərinə və emosiyalarına fikir verin. Onların danışmalarına imkan verin, bu adamları narahat edən məsələləri anlamağa çalışın.



**Oxatan** - Münasibətlərdə və ünsiyyətdə bütün məqamları aydınlaşdırmaq cəhdi əks tərəfin müqaviməti ilə qarşılaşa bilər. Bu gün hətta tənbəllik edərək laqeydlik nümayiş etdirsəniz belə, uğur sizdən yan keçməyəcək.



**Oğlaq** - Məqsədə doğru hərəkətənizə heç kimin və heç nəyin mane olmasına imkan verməyin. Bu gün sizə prioritetləri müəyyənləşdirməyə və qüvvənizi ən səmərəli şəkildə tətbiq etməyə imkan verəcək.



**Dolça** - Sizinlə bağlı gözləntisi olan insanla diqqətli və qayığkeş davranın. Səxavət göstərin. Davranışınız uzun müddət xoş təəssüratlar və xatirə yarada bilər. Axşam saatlarında istəklərinizdən birini reallaşdırın.



**Balıqlar** - Çoxdan planlaşdırdığınız qəti qərarı və ya addımı realaşdıra bilərsiniz. Amma dağıdıcı ruhlu heç nə etməyin. Sevdiyiniz insanla münasibətlərdəki çatları və uçurumları aradan qaldırmaq üçün qarşılıqlı iddialara son qoyun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Müsəlman xanım gözdən əlillər üçün "bələdçi ayaqqabı" icad etdi

**Pakistanın Feysəlabad Dövlət Universitetinin İnformasiya Texnologiyaları fakültəsinin tələbəsi Şanza Munir, gözdən əlillər üçün ayaqqabı icad edib.**

"Ağıllı çəkmələr" Şanzadın bir universitet layihəsidir. Onları xüsusi olaraq, gözdən əlillər üçün hazırlayıb. "Deyerler.org" bildirir ki, Şanza ayaqqabıların əlil insanlar üçün köməkçi bir vasitə və ideal bir bələdçi olacağına ümid edir. "Ayaqqabılar daxili bir vibrasiya sensoruna sahibdir. Bu, istifadəçini yaxınlaşan çuxur barədə xəbərdar edir. Ayaqqabılar həmçinin istifadəçiyə 200 santimetr radiusda rast gələnən maneələr barədə məlumat verəcək və xəbərdar edəcək", - deyə o qeyd edib. Hesabatlar göstərdi ki, bir cüt "ağıllı ayaqqabı" istehsalının dəyəri 10.000-12.000 rupi (təxminən 140 ilə 169 ABŞ dolları) arasında dəyişəcək. İxtiraçı kütləvi istehsal üçün qiymətin azalacağını qeyd edib. Hakimiyyət maraq göstərərək kütləvi istehsalına sponsorluq edərsə, Şanza daha böyük miqyasda ayaqqabı istehsalını başlayacaq.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.